HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 39 (830) ▪ 5 oktyabr 2016 | www.vergiler.az | Qiyməti: 55 qəp.

# Roma Papası Fransiskin Azərbaycan Respublikasına səfəri

Oktyabrın 2-də Azərbaycana rəsmi səfərə gələn Roma Papası Fransiski dövlətimizin başçısı Prezident İlham Əliyev qarşılayıb. Rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra Roma Papası Prezident İlham Əliyevin ailə üzvləri ilə görüşüb və onlara hədiyyələr təqdim edib. Dövlətimizin başçısı da Roma Papasına Azərbaycan sənətkarlarının əl işlərindən ibarət hədiyyələr təqdim edib.



Həmin gün Prezident İlham Əliyev və Roma Papası Fransisk Heydər Əliyev Mərkəzində ictimaiyyətin nümayəndələri qarşısında çıxış ediblər.

Azərbaycan Prezidenti bildirib ki, Roma Papasının ölkəmizə səfəri tarixi hadisədir: «Vatikan-Azərbaycan əlaqələri artıq 24 ildir ki, uğurla inkişaf edir. 2012-ci ildə Vatikan muzeylərində diplomatik əlaqələrimizin 20 illiyinə həsr edilmiş Azərbaycan sərgisi keçirilib. İlk müsəlman ölkəsinin sərgisi məhz Azərbaycan sərgisi idi. Keçən ilin fevralında Heydər Əliyev Fondunun dəstəyi ilə Vatikanın San Marçellinio və Pietro katakombalarının əsaslı təmir və bərpa işlərindən sonra açılışı olub. Bütün bunlar onu göstərir ki, həm bizim ikitərəfli əlaqələrimiz uğurla inkişaf edir, eyni zamanda dinlərarası, mədəniyyətlərarası dialoqun güclənməsi reallıqdır».

Azərbaycanda əsrlər boyu bütün dinlərin, xalqların nümayəndələrinin sülh, ləyaqət, mehribanlıq şəraitində yaşadığını qeyd edən dövlətimizin başçısı ictimai-siyasi quruluşdan asılı olmayaraq ölkəmizdə həmişə sivilizasiyaların qovuşduğunu, respublikamızın Şərq ilə Qərb arasında körpü rolunu oynadığını diqqətə çatdırıb. Prezident İlham Əliyev bildirib ki, Azərbaycan nadir ölkələrdəndir ki, həm Avropa Şurasına, həm də İslam Əməkdaşlıq Təşkilatına üzvdür: «2008-ci ildə Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərinin Bakıda keçirilmiş toplantısına biz müsəlman ölkələrinin mədəniyyət nazirlərini dəvət etdik. Tarixdə ilk dəfə idi ki, iki qurum arasında əlaqə yarandı və bu əlaqəni biz yaratdıq. 2009-cu ildə isə Bakıda müsəlman ölkələrinin mədəniyyət nazirlərinin toplantısına biz Avropa Şurasından nazirləri dəvət etdik. Beləliklə, bu prosesə «Bakı prosesi» adı verildi. Bu gün ölkəmizdə «Bakı prosesi» çərçivəsində bir çox beynəlxalq tədbirlər keçirilir».

Dövlətimizin başçısı Azərbaycanın bölgədə müasirlik və inkişaf baxımından fərqlənən ölkələrdən olduğunu, amma xalqımızın humanitar fəlakətlə üzləşdiyini bəyan edib. Bildirib ki, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində tarixi torpağımız olan Dağlıq Qarabağ və onun ətrafında yerləşən yeddi rayon erməni silahlı qüvvələri tərəfindən işğal edilib: «Bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Xalqımıza qarşı Xocalı soyqırımı törədilmişdir ki, bu gün 10 ölkə bu soyqırımını rəsmən tanıyıb. ATƏT işğal edilmiş torpaqlara iki dəfə faktaraşdırıcı missiya göndərib. O missiyaların məruzələri insanı dəhşətə gətirir. Bizim bütün tarixi, dini abidələrimiz Ermənistan tərəfindən dağıdılıb. Bizim məscidlərimiz, qəbirlərimiz dağıdılıb, muzeylərimiz talan edilib. Biz isə Bakıdakı erməni kilsəsini bərpa etdik. Bu kilsədə erməni dilində beş mindən çox kitab saxlanılır. Bax, fərq bundan ibarətdir. Bu, onların hərəkətləri, bu da bizim münasibətimiz. Ona görə, təsadüfi deyil ki, Azərbaycanı dünyada multikulturalizmin mərkəzi kimi tanıyırlar».

Roma Papası Fransisk çıxışında Azərbaycanın bu günə qədər keçdiyi yolun dövlətin iqtisadi və vətəndaş cəmiyyətinin inkişafına şərait yaratdığını bildirib, ölkəmizin müxtəlif mədəniyyətlər və dini konfessiyalar arasında əməkdaşlıq yolunu davam etdirməsini arzulayıb. Dünyanın dözümsüzlükdən qaynaqlanan, zorakı ideologiya ilə qızışdırılan, zəif təbəqələrin hüquqlarının inkar edilməsindən irəli gələn çoxsaylı münaqişələr faciəsini yaşadığını təəssüflə qeyd edən Roma Papası bu cür təhlükəli meyillərə qarşı qətiyyətlə mübarizə aparmaq üçün sülh mədəniyyətinin inkişaf etdirilməli olduğunu vurğulayıb. O, Azərbaycanda qanlı münaqişə səbəbindən öz torpaqlarını məcburiyyət qarşısında tərk edən, əziyyət çəkən insanlara səmimi salamlarını çatdırıb: «Arzu edirəm ki, beynəlxalq ictimaiyyət öz lazımi yardımını daim göstərsin. Eyni zamanda, yeni mərhələnin başlanmasını mümkün etmək məqsədilə bölgədə sabit sülhün qurulması üçün razılıq doğuran həll variantına nail olmaq naminə hamını əlindən gələni etməyə çağırıram. İnanıram ki, Tanrının himayəsi ilə və tərəflərin xoş iradəsi sayəsində Qafqaz dialoq və danışıqlar yolu ilə bir məkana çevriləcək ki, ziddiyyətlər və fərqlər çözüləcək, aradan qalxacaq. Ölkənizə səfəri zamanı müqəddəs II İoann Pavelin gözəl kəlamı ilə desək, qoy, «Şərq ilə Qərbin arasında qapı» olan bu məkan sülhə açıq olsun və digər keçmiş, eləcə də yeni münaqişələrin həlli üçün nümunəyə çevrilsin».

Sonra Azərbaycanın mədəniyyət, incəsənət, ədəbiyyat və elm xadimləri ilə görüşən Roma Papası Fransisk Heydər Əliyev Mərkəzinin xatirə kitabına ürək sözlərini yazıb.

# Prezident İlham Əliyev: «Bütün mütərəqqi bəşəriyyət multikulturalizm idealları ətrafında birləşməlidir»

Sentyabrın 29-da Heydər Əliyev Mərkəzində V Bakı Beynəlxalq Humanitar Forumu keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Forumun rəsmi açılış mərasimində iştirak ediblər.



Bakıda beşinci dəfə keçirilən Beynəlxalq Humanitar Forumda tanınmış dövlət xadimləri, elmin müxtəlif sahələri üzrə Nobel mükafatı laureatları və nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri, o cümlədən dünyanın siyasi, elmi və mədəni elitasının görkəmli nümayəndələri iştirak ediblər.

Mərasimdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev Forumda 80-ə yaxın ölkədən 400-dən çox nümayəndənin iştirak etməsini mühüm göstərici kimi qiymətləndirib. Bildirib ki, bu Forumun beynəlxalq mötəbər tədbirlər arasında xüsusi yeri var: «Azərbaycan beynəlxalq humanitar əməkdaşlığa həmişə çox böyük diqqət verib. Biz hesab edirik ki, dünyada müsbət meyillər güclənməlidir. Beynəlxalq əməkdaşlıq ölkələrarası əlaqələrin inkişafı üçün xüsusi rol oynayır. Son illər ərzində biz bu məqsədlə ölkəmizdə bir çox beynəlxalq tədbirlər keçirmişik. Onların arasında əlbəttə ki, Bakı Beynəlxalq Humanitar Forumu xüsusi yer tutur. İki ildən bir ölkəmizdə Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Bir neçə il bundan əvvəl Bakıda Dünya dinləri liderlərinin Zirvə görüşü keçirilmişdir. Bu il isə BMT-nin Sivilizasiyalararası Alyansının VII Qlobal Forumu keçirilmişdir. Bütün bu mötəbər tədbirlər çərçivəsində beynəlxalq humanitar əməkdaşlığa, multikulturalizmə və digər önəmli məsələlərə dair geniş diskussiyalar, müzakirələr aparılmışdır».

Azərbaycan Prezidenti ölkəmizdə beynəlxalq tədbirlərin keçirilməsinin bir çox məqsədləri olduğunu diqqətə çatdırıb: «Bu, bizim ölkəmizə lazımdır. Çünki Azərbaycan çoxkonfessiyalı, çoxmillətli ölkədir. Azərbaycanda bütün dinlərin, xalqların nümayəndələri bir ailə kimi yaşayır. Eyni zamanda, bu beynəlxalq, siyasi və humanitar tədbirlər dünyaya da bir siqnal göndərir ki, dünyanın mütərəqqi nümayəndələri səylərini daha da sıx birləşdirməlidirlər. Çünki bu gün əfsuslar olsun ki, dünyada xoşagəlməz meyillər üstünlük təşkil edir. Qanlı toqquşmalar, müxtəlif bölgələrdə müharibələr gedir, dini, milli zəmində qan tökülür. Beynəlxalq humanitar əməkdaşlığın dərinləşməsi müəyyən dərəcədə bu mənfi meyillərin qarşısını ala və müsbət meyilləri gücləndirə bilər».

Prezident İlham Əliyev dünyada güclənən təhlükəli meyillərə qarşı mübarizənin artırılmasının vacibliyinə diqqət çəkib və multikulturalizmlə bağlı səylərin gücləndirilməsinin zəruriliyinə toxunub: «Mən hesab edirəm ki, multikulturalizmin alternativi ksenofobiyadır, ayrı-seçkilikdir, irqçilikdir, islamofobiyadır, antisemitizmdir. Bunlar çox təhlükəli meyillərdir. Biz tarixdə bir neçə dəfə görmüşük ki, bu meyillərin güclənməsi hansı böyük fəlakətlərə yol açır. Ona görə, bütün mütərəqqi bəşəriyyət multikulturalizm ideyaları, idealları ətrafında birləşməlidir. Burada birmənalı mövqe nümayiş etdirilməlidir. Biz öz növbəmizdə, öz fəaliyyətimizlə, səylərimizlə ölkəmizdə mövcud olan ab-havanı dünyaya təqdim edərək göstəririk ki, bu, mümkündür. Multikulturalizmin dünyada bir çox ünvanları var, onlardan biri Azərbaycandır. Biz bundan sonra da çalışacağıq ki, həm beynəlxalq aləmdə, həm ölkə daxilində, regionda bu müsbət meyilləri gücləndirək».

# Görkəmli musiqiçi və dövlət xadimi Rəşid Behbudovun abidəsi açılıb

Oktyabrın 4-də Bakıda, Rəşid Behbudov küçəsində dünya şöhrətli müğənni, SSRİ Xalq artisti, Dövlət mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı Rəşid Behbudovun abidəsinin açılış mərasimi olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Dövlətimizin başçısına məlumat verilib ki, dünya şöhrətli müğənninin adını daşıyan Dövlət Mahnı Teatrının qarşısında ucaldılan heykəlin müəllifi Xalq rəssamı, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının prorektoru, professor Fuad Salayevdir. Heykəlin hündürlüyü 3, pyedestalla birlikdə isə 4,5 metrdir.

Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və məşhur müğənninin ailə üzvləri heykəlin üzərindəki örtüyü götürüb, abidənin önünə gül qoyublar. Mərasimdə çıxış edən dövlətimizin başçısı bildirib ki, bütün həyatını musiqiyə həsr edən görkəmli sənətkarın təkrarolunmaz səsi bizim milli sərvətimizdir: «Rəşid Behbudov doğma xalqına, millətinə çox bağlı insan idi. O, Azərbaycanı həm Sovet İttifaqı çərçivəsində, eyni zamanda, dünyada təbliğ edirdi. Onun ifa etdiyi mahnılar sovet məkanında çox populyar idi. Deyə bilərəm ki, o, Sovet İttifaqında ən populyar ifaçılardan biri idi. Eyni zamanda, o, bir çox xarici ölkələrdə qastrollarda olmuşdur. O, qastrollarda həm Azərbaycan mahnılarını, eyni zamanda, xarici dillərdə mahnılar ifa edirdi və Azərbaycanı təbliğ edirdi. Bir çox ölkələrdə Azərbaycanı Rəşid Behbudova görə tanıyırdılar. O vaxt Azərbaycan müstəqil dövlət deyildi, biz Sovet İttifaqının tərkib hissəsi idik. Ancaq Rəşid Behbudov kimi istedadlı insanlar Azərbaycanı dünyada təmsil edirdilər və göstərirdilər ki, bizim xalqımız nə qədər istedadlı xalqdır».

Rəşid Behbudovu uşaqlıqdan tanıdığını deyən Prezident İlham Əliyevin sözlərinə görə, görkəmli sənətkar onların evində dəfələrlə olmuşdur: «Mən o görüşlərin bəzilərində olmuşam, görmüşəm, özüm şəxsən müşahidə aparmışam. Görürdüm ki, o, çox sadə, səmimi, xeyirxah bir insan idi. Bir daha demək istəyirəm ki, Heydər Əliyevi Rəşid müəllimlə çox möhkəm dostluq əlaqələri bağlayırdı».

Rəşid Behbudovun Sovet İttifaqında çox böyük hörmətə malik olduğunu deyən dövlət başçısı onun gənc yaşlarında SSRİ-nin Xalq artisti adına layiq görülməsini, həm Azərbaycan Ali Sovetinin, həm də Sovet İttifaqı Ali Sovetinin deputatı kimi çox böyük işlər gördüyünü vurğulayıb: «Fəxr edirik ki, bizim xalqımızın nümayəndəsi dünya şöhrətli musiqi xadimidir. Azərbaycan xalqı fəxr edə bilər ki, dünyaya Rəşid Behbudov kimi böyük insanı bəxş edib. Əfsuslar olsun ki, Rəşid müəllim müstəqil Azərbaycanda yaşamayıb. O, 1989-cu ildə həyatdan getdi, müstəqil Azərbaycanı görmədi. Ancaq çox görmək istərdi. Çünki öz xalqına, millətinə bağlı, milli ruhu yüksək olan insanların hamısı istərdilər ki, müstəqil dövlətdə yaşasınlar, öz müstəqil dövlətini təbliğ etsinlər».

Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycanda Rəşid müəllimin adı əbədiləşdirilib. Onun adını daşıyan Dövlət Mahnı Teatrı fəaliyyət göstərir. Musiqi məktəbi onun adını daşıyır: «Bax, bu küçə Rəşid Behbudovun adını daşıyır. Xəzər Dəniz Gəmiçiliyinin ən müasir gəmilərindən birinə onun adı verilmişdir. Keçən il Rəşid Behbudovun 100 illik yubileyi ilə əlaqədar tədbirlər planı tərtib edilmişdir, mənim tərəfimdən müvafiq Sərəncam imzalanmışdır və bu gün Rəşid Behbudovun abidəsi açılır. Bu gözəl hadisə münasibətilə Rəşid müəllimin ailə üzvlərini, yaxınlarını, dostlarını, bütün Azərbaycan xalqını bir daha təbrik etmək istəyirəm. Rəşid müəllim həmişə bizim ürəyimizdə yaşayacaqdır».

BU NÖMRƏMİZDƏ

«TAX FREE» SİSTEMİNİN ELEKTRON QAYDADA APARILMASI YENİ AZƏRBAYCAN BRENDİNƏ ÇEVRİLƏ BİLƏR 2

«RƏQƏMSAL İQTİSADİYYAT»DA ELEKTRON TİCARƏTİN DÖVLƏT UÇOTUNUN TƏŞKİL OLUNMASI ZƏRURİDİR 3

ƏMƏKDAŞLARIN PEŞƏKARLIQ SƏVİYYƏSİNİN ARTIRILMASI VACİB AMİLDİR 4

VERGİDƏN YAYINMALARIN QARŞISININ ALINMASINDA YENİ MƏRHƏLƏ 5

# «Tax free» sisteminin elektron qaydada aparılması yeni Azərbaycan brendinə çevrilə bilər

Oktyabrın 4-də «JW Marriot Absheron Baku» mehmanxanasında Vergilər Nazirliyi və digər dövlət qurumlarının, xarici ölkə səfirliklərinin nümayəndələrinin iştirakı ilə Azərbaycanda elektron «Tax free» sisteminin tətbiqi ilə bağlı tədbir keçirilib.




Tədbirdə çıxış edən vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri İlkin Vəliyev son illər vergi sistemində aparılan islahatlar barədə iştirakçılara ətraflı məlumat verib. Ölkə başçısının «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətlərinin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust tarixli sərəncamı və bu sərəncam çərçivəsində görülən işlər barədə danışan nazir müavini bildirib ki, həmin islahatlar paketində mühüm istiqamətlərdən biri ölkədə tətbiq olunan «Tax free» sisteminin genişləndirilməsi ilə bağlıdır: «Bildiyiniz kimi, «Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası»nın təsdiq olunması ilə bağlı ölkə başçısı bu il iyulun 12-də müvafiq fərman imzalamışdır. Sənəddə qaydanın tənzimləyicisi kimi Vergilər Nazirliyi müəyyən olunmuşdur. Fərman imzalandıqdan qısa müddət ərzində «Tax free» sisteminin tətbiqinə başlanılmış və hazırda aidiyyəti dövlət orqanları ilə birlikdə bu sistemin elektron qaydada tətbiqi həyata keçirilməkdədir».




Vergilər Nazirliyi tərəfindən son illərdə mühüm islahatların həyata keçirildiyini deyən nazir müavininin sözlərinə görə, bu islahatlar ümumi olaraq bütün vergi proseslərinin avtomatlaşdırılması ilə əlaqədardır: «Vergilər Nazirliyində tətbiq olunan mütərəqqi informasiya kommunikasiya texnologiyaları «Tax free» sisteminin də elektronlaşmasına şərait yaratmışdır. Artıq bu sistemin elektron qaydada həyata keçirilməsi onun yeni Azərbaycan brendinə çevrilməsinə imkan vermişdir».

Tədbir çərçivəsində vergi sistemində son illərdə elektron sahədə aparılan islahatlarla bağlı film nümayiş olunmuşdur. Sonra Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar baş idarəsinin rəisi Samirə Musayeva təqdimatla çıxış edərək, ölkəmizdə «Tax free» sisteminin tətbiqi, onun faydaları, bununla bağlı inzibatçılıq məsələləri və s. barədə iştirakçılara ətraflı məlumat vermişdir. Bildirilmişdir ki, «Tax free» sistemi xarici turist tərəfindən alınmış mala görə ödənilən əlavə dəyər vergisinin ölkəni tərk edərkən həmin turistə geri qaytarılmasını nəzərdə tutur. Dünyada ƏDV tətbiq edən 130 ölkənin 52-də «Tax free» sisteminin mövcud olduğunu deyən idarə rəisinin sözlərinə görə, bu sistem əcnəbi turistlərin Azərbaycana cəlb edilməsini təşviq edir, habelə onların ölkə ərazisində mal almasını stimullaşdırır: «Tax free» sistemi ölkənin turizm üzrə rəqabət qabiliyyətini artırır, xarici valyutanın daxil olmasını təşviq edir, nəticədə pərakəndə ticarətdə rəqabəti artırmaqla satış dövriyyəsini genişləndirir, habelə turizm yönümlü istehsalı stimullaşdırır. Azərbaycanda «Tax free» sistemi ilkin olaraq beynəlxalq hava limanlarında tətbiq edilməyə başlanıb və gələcəkdə respublikanın digər sərhəd-buraxılış məntəqələrində də həyata keçirilməsi nəzərdə tutulur».

İdarə rəisinin sözlərinə görə, «Tax free» sisteminin imkanlarından ölkə vətəndaşları, Azərbaycan Respublikası ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün icazə verilmiş, haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsi almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, bilavasitə xidməti vəzifələrini icra edən hava nəqliyyatının heyət üzvləri və 14 yaşınadək şəxslər yararlana bilməzlər. ƏDV-nin qaytarılması aksizli mallara, ərzaq mallarına, dərman preparatları və tibbi ləvazimatlara, ölkənin mədəni-tarixi sərvəti hesab edilən, mədəni irsin qorunması üçün mühüm əhəmiyyət kəsb edən mallara, ölkə daxilində satışı ƏDV-dən azad edilən mallara, ixracı üçün lisenziya tələb olunan mallara, çərçivəyə salınmamış, emal edilməmiş və ya çeşidlənməmiş qiymətli daşlara, külçə şəklində qiymətli metallara, müşayiət olunmayan baqajla Azərbaycan Respublikasının ərazisindən aparılan mallara, nəqliyyat vasitələri və onların ehtiyat hissələrinə, poçt və ya internet xidməti vasitəsilə ixrac edilən mallara şamil olunmur.



S.Musayevanın sözlərinə görə, bu sistemdən faydalanmaq üçün alınan mal şəxsi istehlak məqsədi daşımalı, kommersiya və istehsal xarakterli olmamalıdır. Əcnəbi turistlər aldıqları malı 90 gün ərzində ölkədən çıxarmalıdırlar. Mal alan zaman şəxsiyyəti təsdiq edən sənəd şəxsin üzərində olmalıdır ki, o, eyniləşdirilə bilsin: «Bir elektron vergi hesab-fakturası üzrə malların dəyəri ƏDV ilə birlikdə 300 manatdan çox olduğu hallarda «Tax free» tətbiq edilə bilər. Bu zaman ödənilmiş ƏDV məbləğinin 12%-i geri qaytarılır. Müvəkkil bank tərəfindən pul nağd şəkildə manatla və ya bank hesabına sonradan köçürmə qaydasında manat və ya xarici valyutada ödəniləcəkdir».

«Tax free» sistemində gömrük orqanlarının iştirakı barədə məlumat verən idarə rəisinin sözlərinə görə, gömrük orqanları bu sistemin əsas iştirakçılarındandır: «Əcnəbi turist tərəfindən aldığı mallara dair e-VHF pasportla birlikdə gömrük sərhəd-buraxılış məntəqəsində gömrük orqanı əməkdaşına təqdim edildikdən sonra həmin e-VHF vahid məlumat bazasında eyniləşdirilərək risk qiymətləndirilməsi aparılır. Risk qiymətləndirməsinin nəticələri əsasında alıcının və ona məxsus malların gömrük nəzarətindən keçməli olub-olmadığı proqram təminatı vasitəsilə açıqlanır. Alıcının və ona məxsus malların gömrük nəzarətindən keçməsi tələb edildiyi halda, alıcı həmin malları gömrük baxışının keçirilməsi məqsədilə gömrük orqanı əməkdaşlarına təqdim etməlidir. Gömrük orqanı əməkdaşları təqdim edilmiş mallarla vahid məlumat bazasına daxil edilmiş məlumatların uyğunluğunu yoxlayır, yoxlamanın nəticələrinə uyğun olaraq, alıcıya qaytarılacaq ƏDV məbləği barədə onun təqdim etdiyi e-VHF-də qeyd aparır, möhürlə təsdiq etməklə alıcıya təqdim edir və vahid məlumat bazasında e-VHF-ni təsdiq etməklə bu barədə məlumatı real vaxt rejimində müvəkkil banka ötürür. Risk qiymətləndirməsinin nəticələri əsasında alıcıdan malları gömrük baxışı üçün təqdim etmək tələb olunmadıqda, qaytarılacaq ƏDV-nin yekun məbləğini əks etdirən e-VHF gömrük orqanı tərəfindən möhürlə təsdiq olunur və bu barədə məlumatlar real vaxt rejimində müvəkkil banka ötürülür».

S.Musayevanın sözlərinə görə, Azərbaycanda «Tax free» sisteminin tətbiqinə başlanılmasından sonrakı 3 ayda ölkəmizə gələn əcnəbi turistlərin böyük bir qismi bu sistemə maraq göstərib. Təkcə Asiya ölkələrindən respublikamıza gəlmiş 1556 turistə 161,1 min manat ƏDV məbləği geri qaytarılıb. Yaxın Şərq ölkələrindən Azərbaycana səfər edən 536 şəxsə ümumilikdə 227,3 min manat, 842 avropalı turistə 139,2 min manat ƏDV məbləği geri qaytarılıb.

İdarə rəisi onu da bildirmişdir ki, ƏDV-nin qaytarılması şərti ilə malların satışını həyata keçirmək üçün satıcı ƏDV ödəyicisi kimi qeydiyyatdan keçməli, pərakəndə ticarət fəaliyyəti ilə məşğul olmalı, təsərrüfat subyektində quraşdırılmış nəzarət-kassa aparatına və POS-terminala malik olmalı, Vergi Məcəlləsi ilə müəyyən edilmiş vergilərlə bağlı dövlət büdcəsinə borcu və digər öhdəliyi olmamalıdır: «ƏDV-nin qaytarılması şərti ilə satış həyata keçirmək istəyən vergi ödəyicisi satıcı kimi qeydiyyata alınmaq üçün Vergilər Nazirliyi tərəfindən təsdiq edilmiş formada ərizə ilə qeydiyyatda olduğu vergi orqanına müraciət etməlidir. Vergi orqanı müraciət edən vergi ödəyicisinin məlumatlarını yoxladıqda və ərizədə aradan qaldırılması mümkün olan çatışmazlıqlar aşkar edildikdə, ərizənin daxil olduğu tarixdən 3 iş günündən gec olmayaraq, vergi orqanı bu barədə ödəyiciyə bildiriş təqdim edir. Aşkar olunmuş çatışmazlıqlar aradan qaldırıldıqdan sonra vergi ödəyicisi təkrar ərizə ilə vergi orqanına müraciət etməklə 5 iş günündən gec olmayaraq satıcı qismində qeydiyyata alına bilər. Qeydiyyata alınan vergi ödəyicisinə bu barədə təsdiqedici sənəd təqdim edilir. Satıcının yeni təsərrüfat subyekti olduqda, həmin subyekt üzrə yenidən ərizə ilə müraciət edilməlidir».

Qeyd olunmuşdur ki, «Tax free» inzibatçılığı üzrə əsas məsul subyekt operatordur və bu funksiya Vergilər Nazirliyinə həvalə edilib. Operatorun vəzifələri barədə məlumat verən S.Musayevanın sözlərinə görə, operator malların satışının rəsmiləşdirilməsi və əlavə dəyər vergisinin qaytarılması işlərini təşkil edir, proqram təminatının daim işlək vəziyyətdə saxlanılmasını və fasiləsiz fəaliyyətini, «Tax free» mərkəzi informasiya sisteminin yaradılmasını və idarə edilməsini təmin edir.

Azərbaycanda «Tax free» sistemi haqqında bütün zəruri məlumatları özündə əks etdirən taxfree.az internet səhifəsi barədə də məlumat verən idarə rəisi bildirmişdir ki, sayt Azərbaycan, ingilis və rus dillərində fəaliyyət göstərir. Bu resurs vasitəsilə respublikamıza gəlmək istəyən xarici ölkə vətəndaşları onlara gərəkli olan bütün məlumatlarla tanış olmaq imkanını əldə edə bilərlər.

***Təqdimatdan sonra vergilər nazirinin müavini İlkin Vəliyev media nümayəndələrinin suallarını cavablandırıb.***

Bu ilin 9 ayında vergi daxilolmaları barədə sualı cavablandıran nazir müavini bildirib ki, yanvar-sentyabr aylarında Vergilər Nazirliyi tərəfindən proqnoz tapşırığı 100 faiz icra olunub: «Bu ilin 9 ayında vergi daxilolmaları 4 milyard 926 milyon manat təşkil edib. Bu dövr ərzində qeyri-neft sektorundan proqnoz tapşırıqlarından artıq, yəni 64 milyon manata yaxın artıq vəsait daxil olub ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 365 milyon manat çoxdur. Ümumilikdə 9 ay ərzində qeyri-neft sektoru üzrə 3 milyard 843 milyon manat vəsait daxil olub».

Orta və kiçik sahibkarlara vergi güzəşti tətbiqi barədə suala aydınlıq gətirən İ.Vəliyev bildirib ki, belə bir təklif olmadığından, təbii ki, onun müzakirəsi də aparılmır: «Kiçik və orta sahibkarlığa hər hansı əlavə vergi güzəşti gözlənilmir. Bildiyiniz kimi, orta və kiçik sahibkarlıqla məşğul olan şəxslər Bakı şəhərində 4, regionlarda 2 faiz olmaqla sadələşdirilmiş vergi ödəyiciləridir. Hesab edirəm ki, bunun özü də bir güzəştdir».

Əlavə dəyər vergisinin diferensiallaşdırılması ilə bağlı sualı cavablandıran nazir müavini bildirib ki, ölkə başçısının məlum sərəncamında ƏDV ilə bağlı məsələlər də yer alıb və artıq bu istiqamətdə Vergilər Nazirliyi tərəfindən müəyyən tədbirlər həyata keçirilir. Bank sektorundan vergi daxilolmaları ilə bağlı sualı cavablandıran İ.Vəliyevin sözlərinə görə, ötən ilin yanvar-sentyabr ayları ilə müqayisədə bu ilin eyni dövründə bu sahədən vergi daxilolmalarında 110 milyon manata yaxın azalma qeydə alınıb.

**Aytən NƏBİYEVA**

## Normativ hüquqi aktlar təsdiq edilib

«2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 avqust tarixli 2257 nömrəli sərəncamı ilə verilmiş tapşırıqların icrasının təmin olunması məqsədilə Vergilər Nazirliyinin Kollegiyası tərəfindən bir sıra normativ hüquqi aktlar təsdiq edilib. Bunlara «Bəyannamələrin kameral vergi yoxlamalarının aparılmasına dair Qaydalar», «Səyyar vergi yoxlamasının keçirilməsi Qaydaları», «Nümunəvi vergi ödəyicisinin müəyyən edilməsi və imtiyazların verilməsi Qaydaları», «Elektron auditin keçirilməsi Qaydaları», «Vergilər Nazirliyinin Çağrı Mərkəzi tərəfindən əlaqə yaradılaraq vergi ödəyicilərinin məlumatlandırılması (Outbound Call Centre) Qaydaları», «Təsərrüfat obyektləri və fəaliyyət sahələri üzrə risklərin qiymətləndirilməsi Metodologiyası», «Borclu vergi ödəyiciləri üzrə risk qruplarının müəyyən edilməsi və borcların, faizlərin və maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması sahəsində vergi ödəyicilərinin maarifləndirilməsi Qaydaları» aiddir.

Bundan başqa, bir sıra elektron xidmətlərin, o cümlədən fiziki və hüquqi şəxslərin fəaliyyətinin onlayn dayandırılması, eləcə də fiziki və hüquqi şəxslərin fəaliyyətinin onlayn bərpası üzrə inzibati reqlamentlər də yeni redaksiyada təsdiq edilib. Qəbul edilmiş normativ hüquqi aktlar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilib.

2017-ci il yanvarın 1-dən tətbiq olunması nəzərdə tutulan «Elektron auditin keçirilməsi Qaydaları»ndan başqa, bütün normativ hüquqi sənədlər artıq qanuni qüvvəyə minib.

## Yerli özünüidarəetmə orqanları üçün təlim

Vergilər nazirinin əmri ilə təsdiq olunmuş «2013-2020-ci illərdə vergi sisteminin inkişaf Strategiyası»nda əsas məqsədlərdən biri kimi bələdiyyələrdə yerli vergilərin və ödənişlərin düzgün hesablanması, tam və vaxtında ödənilməsi, vergi qanunvericiliyinə ciddi riayət edilməsi nəzərdə tutulub. Verilmiş tapşırıqlara uyğun olaraq, Vergilər Nazirliyi tərəfindən bələdiyyə vergilərinin ödəyiciləri olan fiziki şəxslərin vergi və ödənişlərinin elektron uçotunu nəzərdə tutan Bələdiyyə Vergi İnformasiya Sistemi (BVİS) yaradılıb və bələdiyyələrdə tətbiq edilməkdədir. Bu məqsədlə oktyabrın 3-4-də Vergilər Nazirliyinin Tədris Mərkəzində «Yerli vergilərin və ödənişlərin hesablanması və ödənilməsi. Bələdiyyələrin Vergi İnformasiya Sistemində iş prosedurları» mövzusunda təlim keçilib. Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin şöbə rəisi Əvəz Quliyev bələdiyyə vergilərinin ödəyiciləri olan fiziki şəxslərin və sahibkarlıq fəaliyyəti subyektlərinin uçota alınması barədə iştirakçılara məlumat verərək bildirib ki, yerli vergi ödənişlərinin hesablanması və ödənilməsi üçün yaradılmış elektron uçot sistemi şəffaflığın təmin olunmasında mühüm rol oynayır.

Tədris Mərkəzinin Vergi metodologiyası kafedrasının müəllimləri Yaşar Dəmirov və Azər Mustafayev bələdiyyə mülkiyyətində olan fiziki və hüquqi şəxslərin əmlak, torpaq və mənfəət, yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergilərinin hesablanması və ödənilməsi barədə təlim iştirakçılarına məlumat veriblər. Təlimçilərə BVİS-də qeydiyyata alınmış vergi ödəyicilərinə bələdiyyə vergilərinin hesablanması və tədiyyə bildirişlərinin elektron qaydada hazırlanması və daxilolmaların BVİS-ə işlənməsi prosedurları barədə geniş izahat verilib verilib.

Tədbirdə iştirak edən Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının nümayəndələri - Qalib Məmmədov, Samir Nuriyev və Mətanət Əsgərova bələdiyyə qulluğu və bələdiyyə qulluqçularının etik davranış məsələləri, torpaq qanunvericiliyi, bələdiyyə torpaqlarının idarə edilməsi, şəffaflığın təmin olunması, korrupsiya hüquqpozmalarının qarşısının alınması ilə bağlı fikirlərini bölüşüblər.

**ELBRUS**

# «Rəqəmsal iqtisadiyyat»da elektron ticarətin dövlət uçotunun təşkil olunması zəruridir



Müsahibimiz
Vergilər Nazirliyinin
Vergi risklərinin təhlili və nəzarəti
Baş İdarəsinin rəisi
Əflatun Məmmədovdur

***- Əflatun müəllim, 2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətlərindən biri «rəqəmsal iqtisadiyyat»ın, o cümlədən e-ticarətin vergiyə cəlb olunmasıdır. Əvvəlcə anlayışın özünə aydınlıq gətirmək oxucularımız üçün də maraqlı olar: «rəqəmsal iqtisadiyyat» nədir?***

- Müasir dövrdə internetin geniş yayılması iqtisadiyyatın yeni inkişaf mərhələsinə başlamasına səbəb olub, informasiya texnologiyaları iqtisadiyyata nüfuz edib. Artıq iqtisadiyyatın özü də bir elm olaraq dəyişib və yeni anlayışlar meydana gətirib. Texnologiya və informasiya inqilabı nəticəsində son zamanlar yüksək sürətlə inkişaf etmiş yeni iqtisadi model kiberbiznesin yaradılmasını şərtləndirib. Kiberbiznes informasiya texnologiyasının tətbiqindən yaranan və idarə olunan bütün sahələri əhatə edir. «Rəqəmsal iqtisadiyyat» isə onun bir elementi olmaqla, iqtisadiyyatın informasiya texnologiyalarının köməyi ilə elektronlaşan hissəsidir. Elektron ticarəti, elektron informasiya mübadiləsini, elektron idman-mərc oyunlarını, kapitalın elektron hərəkətini, elektron pulları, e-bankinqi, e-sığortanı və s. özündə birləşdirən «Rəqəmsal iqtisadiyyat»ın ən geniş yayılmış növlərindən biri də elektron ticarətdir. Artıq dünya üzrə istifadəçilərinin sayı 1,5 milyarda çatan elektron ticarət iki yerə - offline və online biznesə bölünür. Bunlardan offline biznesi dünya üzrə daha geniş yayılıb. Təkcə offline pərakəndə satılmış malların ümumi pərakəndə satışdakı təxmini payı 5,9 faiz müəyyən edilib.

***- Beynəlxalq təcrübədə bu sahədən vergitutma necə tənzimlənir?***

- Dünyanın bir çox dövlətləri e-ticarət üzərində vergi nəzarətinin gücləndirilməsi üçün yeni xüsusi vergilərin tətbiq olunmasını zəruri hesab etmirlər. Çünki elektron ticarət əməliyyatlarının ümumi ənənəvi metodlarla vergiyə cəlb olunması mümkündür, sadəcə, bu fəaliyyət üzərində nəzarət mexanizmi kimi sertifikatlaşdırma tətbiq olunur. Yəni e-ticarətlə məşğul olan hər bir şəxs müvafiq dövlət orqanından xüsusi sertifikat almağa məcburdur.

Vergilər Nazirliyi elektron ticarətin vergiyə cəlb edilməsi ilə bağlı Qərbi Avropanın bir neçə ölkəsinin təcrübəsini (o cümlədən İspaniya Krallığının qabaqcıl təcrübəsini) araşdırır və biz həmin təcrübələrin tətbiqi mexanizmi üzərində müvafiq işlər aparırıq. Bununla bağlı İspaniya Krallığının mütəxəssisləri ilə bir neçə treninq və seminar keçirilib. Misal üçün: İspaniya Krallığında xarici internet portalları vasitəsilə oynanılan mərc oyunlarına görə ölkə rezidentləri tərəfindən həmin portallara ödənilən və geri alınan məbləğlərin fərqindən yaranan xalis gəlirdən 30 faiz həcmində məbləğ vergi kimi ödənilir. Bu mexanizm İspaniya Krallığı ilə internet portalı arasında bağlanılmış qarşılıqlı müqavilə ilə tənzimlənir. Təkcə bu ölkədə il ərzində idman-mərc oyunlarından orta hesabla 533 milyon avro gəlir qeydə alınıb.

***- Azərbaycanda bu sahənin vergiyə cəlb olunması ilə bağlı hansı işlər görülməkdədir və vergi mexanizmi necə müəyyən edilə bilər?***

- Son dövrlərdə Azərbaycanda da internet şəbəkəsi vasitəsilə həyata keçirilən ticarət sövdələşmələrinin sayı durmadan artmaqdadır və gələcəkdə bu tendensiyanın daha da yüksəlməsi şübhəsizdir. Lakin elektron ticarət əməliyyatlarının virtual aləmdə həyata keçirilməsi həmin əməliyyatların vergiyə cəlb edilməsi məsələlərini çətinləşdirir. Bütün bunlar dövlət büdcəsinin gəlirlərinin itirilməsi ilə nəticələnir. Məhz bu itkilərin aradan qaldırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 4 avqust 2016-cı il tarixli sərəncamında şəffaflığı artırmaq və vergitutma bazasını genişləndirmək üçün beynəlxalq təcrübədə geniş tətbiq olunan «rəqəmsal iqtisadiyyat»ın vergiyə cəlb edilməsi ilə bağlı tapşırıqlar verilib. Sərəncamın icrası ilə əlaqədar Vergilər Nazirliyi tərəfindən elektron ticarətin vergiyə cəlb olunması haqqında qanun layihəsi hazırlanır və hazırda aidiyyəti qurumlarla müzakirə olunur. Bununla yanaşı, Vergilər Nazirliyinin Vergi risklərinin təhlili və nəzarəti Baş İdarəsi tərəfindən qabaqlayıcı tədbirlər görülərək araşdırmalar aparılıb, internet portallarının yaradılmasına nəzarət edən müvafiq qurumla birgə virtual məkanda e-ticarətlə məşğul olan hüquqi və fiziki şəxslərin müəyyənləşdirilməsi və bu sahədə ümumi vergi nəzarətinin qurulması istiqamətində işlərə başlanılıb. Ümumi nəzarətin qurulmasının mərhələlərlə həyata keçiriləcəyi nəzərə alınaraq, ilk mərhələdə Baş İdarə tərəfindən cari ilin 1-ci rübündə 186 internet portalı və ya sosial şəbəkələr vasitəsilə elektron mal alğı-satqısı həyata keçirən istifadəçilər müəyyən edilib. Onlardan 54-nün vergi orqanında qeydiyyatda olmadığı, 47-sinin isə qeydiyyatda olduğu halda dövriyyəsinin olmadığı və ya məhsulların satış qiymətləri ilə müqayisədə minimum olduğu müəyyənləşdirilib. Bununla bağlı vergi orqanında qeydiyyatı olmayan şəxslərin uçota alınması barədə müvafiq bildirişlər göndərilib, qeydiyyatı olan, lakin dövriyyəsi olmayan şəxslərin bank hesablarına müvafiq sorğular verilib və yaranmış kənarlaşmalar barədə vergi ödəyicilərinə məktub ünvanlanıb. Bu istiqamətdə görülmüş tədbirlər nəticəsində 2016-cı ilin 1-ci rübü ilə müqayisədə 2-ci rübdə elektron ticarət fəaliyyəti göstərən vergi ödəyicilərinin dövriyyəsində 54,1%, hesablamalarda 53,8%, daxilolmada isə 69,1% artım müşahidə olunub.

Hazırda elektron ticarətlə məşğul olan internet portallarının birbaşa hansı vergi ödəyicisinə aid olduğunun dəqiqləşdirilməsi, vergi qeydiyyatı olmayanların uçota alınması, nağd və ya nağdsız ödəniş qaydasında fəaliyyət göstərilməsinin, bank hesablarının, portallarda yerləşdirilən reklam və ya elanların, onların sifarişçisinin və ya tərtibatçısının müəyyən edilməsi, nağd və bank hesabları üzrə əməliyyatların əldə olunması və ümumilikdə bütün gəlirləri ilə bəyannamə göstəricilərinin müqayisəli araşdırılması istiqamətində işlər aparılır.

***- Ölkəmizdə rəqəmsal texnologiyalar üzrə ixtisaslaşmış potensial şirkətlər varmı və onların təkliflərində başlıca məqam nədən ibarətdir?***

- Bəli, belə şirkətlər mövcuddur. Onlar tərəfindən Vergilər Nazirliyinə təkliflər daxil olur və hazırda nazirlikdə qiymətləndirilir. Bunlarla bərabər, Vergilər Nazirliyi elektron ticarətin vergiyə cəlb edilməsi ilə bağlı bir neçə Qərbi Avropa ölkəsinin təcrübəsini araşdırır və real tətbiq mexanizmləri üzərində işləri davam etdirir.

***- «Rəqəmsal iqtisadiyyat» ümumilikdə iqtisadiyyatın inkişafında və vergitutma bazasının genişləndirilməsində hansı rolu oynaya bilər?***

- Müasir dövrdə internet həyatımızın tərkib hissəsinə çevrilməkdədir. Dünya əhalisinin 3,2 milyard nəfərinin internet istifadəçisi olması və onların istifadə etdikləri 9 milyard qurğunun internetə qoşulması buna bariz nümunədir. İnternet yaranandan bəri dünyada internet xidməti göstərən 10.000-dən çox provayder şirkətinin yaradılması, 300 milyondan artıq domen adın qeydiyyata alınması və 2,1 milyard sosial şəbəkə istifadəçisinin olması dünya iqtisadiyyatının inkişafında onun rolunun əhəmiyyətliliyini bir daha təsdiq edir. İnternetin bu qədər inkişaf etməsi iqtisadi münasibətlər sistemində təzahür edən yeni hədəfləri, o cümlədən prioritet istiqamətləri müəyyənləşdirdi. Misal kimi, hazırkı inkişaf mərhələsində rəqəmsal valyutanın yaradılmasını qeyd edə bilərəm. Bu valyutanın müsbət xarakteristikası inflyasiyanın qarşısının alınması, anonimliyin qorunması, heç bir dövlətə bağlı olmaması və bazarda hər kəsə açıqlığı ilə əlaqədardır. Daha geniş yayılmış digər rəqəmsal valyuta növü olan bitcoinin dünya üzrə istifadəçilərinin artması nəticəsində 1 bitcoinin dəyəri son 6 ildə 0.07 sentdən çox artaraq, 680 dollara çatıb. Qeyd olunanlar onu göstərir ki, ümumi iqtisadiyyatın inkişafında «rəqəmsal iqtisadiyyat»ın rolu çox yüksəkdir. Son 1 il ərzində dünya üzrə elektron ticarətin həcmi 1 trilyon 700 milyard dollar müəyyən edilib. Bu ticarət dövriyyəsinin yarıdan çoxu, daha dəqiq desək, 61 faizi 3 ölkənin (ABŞ, Çin və Böyük Britaniya) payına düşür. Dünyada ən iri rəqəmsal şirkətlərinin qeydiyyatda olduğu ölkələrin ümumi daxilolmalarında onun nə qədər mühüm rol oynadığını həmin şirkətlər tərəfindən ödənilmiş vergilərin məbləğindən də görmək olar: bir il ərzində «Apple» şirkəti 13,1 milyard dollar, «Google» şirkəti 2,3 milyard dollar, «Facebook» şirkəti 1,3 milyard dollar, «EBAY» şirkəti 610 milyon dollar vergi ödəyib.

Ölkəmizə gəlincə, rəsmi statistikaya görə, Azərbaycanda elektron ticarətin həcmi o qədər də böyük deyil. Əslində isə bu rəqəmin milyonlarla manat olduğunu güman etmək olar. Məhz bu səbəbdən, ilkin olaraq, elektron ticarətin dövlət uçotunun təşkil olunması zəruridir. Elektron ticarət sahəsində uçotun təşkili, şəffaflığın artırılması və vergitutma bazasının genişləndirilməsi istiqamətində lazımi addımlar atılmaqla e-ticarətin vergiyə cəlb edilməsi asanlaşacaq ki, bu da vergitutma bazasının genişləndirilməsinə və dövlət büdcəsinə vergi daxilolmalarının həcminin artmasına səbəb olacaqdır.

***- İslahatların mühüm istiqamətlərindən biri vergi ödəyicilərinin vergi risklərini minimuma endirmək və vergidən yayınma hallarının qarşısını almaq məqsədilə «Könüllü vergi açıqlaması» sisteminin tətbiqi və təşviqi mexanizminin hazırlanmasıdır. Bu sistemin əsas üstünlüyü nədir?***

- «Könüllü vergi açıqlaması»nın üstünlüyü vergi orqanı tərəfindən keçirilən vergi yoxlaması zamanı aşkar olunmamış səhvlərin vergi ödəyicisi tərəfindən könüllü olaraq bəyan edilməsidir. Bu isə vergi ödəyicisinə dəqiqləşmiş bəyannamə verilməsi hüququ verir. Həmin bəyannamə ilə könüllü açıqlanmış vergi məbləğlərinə görə vergi ödəyicisinə faiz hesablanması və maliyyə sanksiyasının tətbiqi istisna ediləcəkdir. Bütün bunlar vergi ödəyicilərinin vergi risklərinin minimuma endirilməsi, vergidən yayınma hallarının qarşısının alınması və könüllü vergi ödənişlərinin artırılması məqsədi daşıyır.

***- Vergi ödəyiciləri tərəfindən aparılan əməliyyatlarda elektron qaimə-faktura sisteminin tətbiqi ilə əlaqədar hansı yeniliklər nəzərdə tutulur?***

- Dövlət başçısının sərəncamına əsasən, elektron qaimə-faktura sisteminin tətbiqi ilə əlaqədar aidiyyəti qurumlarla razılaşdırılmaqla bir sıra qanunvericilik aktlarına dəyişiklik nəzərdə tutulur. Elektron qaimə-faktura sisteminin tətbiqi vergi sistemində elektronlaşmanın tərkib hissəsi olacaq. Bu, vergi ödəyiciləri tərəfindən qaimə-fakturanın təqdim edilməsinin sadələşdirilməsinə və elektron formada aparılmasına imkan yaradacaq. Başqa sözlə, malların yüklənməsi və göndərilməsi artıq elektron sistemdə öz əksini tapacaq. İndiyədək vergi orqanları daxil olan pul vəsaitlərini banklar vasitəsilə izləyə bilirdisə, bundan sonra malın hərəkətinə də nəzarət etmək imkanlarına sahib olacaq.

***Müsahibəni hazırladı:***
**Elbrus CƏFƏRLİ**

Vergilər Nazirliyi tərəfindən elektron ticarətin vergiyə cəlb olunması haqqında qanun layihəsi hazırlanır və aidiyyəti qurumlarla müzakirə olunur













| Elektron ticarət fəaliyyəti göstərən portalların ümumi sayı | o cümlədən | | 2016-cı ilin 1-ci rübü ilə müqayisədə 2-ci rübün iqtisadi göstəricilərində artım | | |
|---|---|---|---|---|---|
| | *Vergi uçotunda olmayan* | *Dövriyyəsi olmayan və ya az olan* | *Dövriyyədə* | *Hesablamada* | *Ödəmədə* |
| 186 | 54 | 47 | 54,1% | 53,8% | 69,1% |

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanmış 2017-ci il və sonrakı üç il üzrə ölkənin iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəricilərinə əsasən, gələn il Azərbaycanda ümumi daxili məhsulun real iqtisadi artımı 1,0% olmaqla **61,4 milyard** manat təşkil edəcək.
- Azərbaycanda pensiya və müavinətlərin, ünvanlı sosial yardımın, məcburi köçkünlərin sosial məsələlərinin və digər sosial tədbirlərin maliyyə təminatı məqsədilə gələn ilin dövlət büdcəsində sosial müdafiə və sosial təminat xərcləri üçün **2117,7 milyon** manat vəsait proqnozlaşdırılıb.
- 2017-ci ildə elm xərclərinin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi **0,8%** təşkil edəcək və bu göstərici cari illə müqayisədə **0,1** faizbənd çoxdur.



Vergi ödəyicisinin sualı var...

Samirə Musayeva

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

# Sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ

***Ticarət fəaliyyəti ilə məşğul olan şəxslərin vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrdə 200.000 manatdan artıq olduqda, sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququndan istifadə etmək üçün hansı müddətdə ərizə təqdim olunmalıdır?***

Vergi Məcəlləsinin (VM) 155.1-ci maddəsində qeyd edilmişdir ki, sahibkarlıq fəaliyyəti göstərən və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatdan artıq olan şəxslər, o cümlədən bu Məcəllənin 218.1-ci maddəsi ilə müəyyən edilmiş hüquqdan istifadə etməyən ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər (VM-in 218.4.1-ci, 218.4.2-ci və 218.4.3-cü maddələrində göstərilənlər istisna olmaqla) həmin Məcəllənin 157.3.1-ci maddəsində göstərilən tarixdən 10 gün ərzində ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludurlar.

Vergi Məcəlləsinin 218.1.2-ci maddəsinə əsasən, vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququna malikdirlər.

**Qeyd olunanlara əsasən:**

Ticarət fəaliyyəti ilə məşğul olan şəxslər vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olduqda növbəti ayın ilk 10 günü ərzində uçotda olduğu vergi orqanına sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququndan istifadə etmək barədə məlumatı təqdim edir. Müvafiq məlumat forması təqdim edilmədikdə isə həmin şəxslər, Vergi Məcəlləsinin 155.1-ci maddəsinə uyğun olaraq, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınırlar.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

# Əməkdaşların peşəkarlıq səviyyəsinin artırılması vacib amildir

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən Vergilər Nazirliyinin səlahiyyətlərinə aid edilmiş cinayət və digər hüquqpozma hallarına qarşı məqsədyönlü və ardıcıl mübarizə tədbirləri həyata keçirilir. Bu tədbirlərin daha səmərəli olması üçün Departamentin müstəntiq, təhqiqatçı və əməliyyatçılarının vaxtaşırı olaraq müvafiq təlim və tədris kurslarına cəlb olunmasına xüsusi əhəmiyyət verilir.

Vergilər nazirinin əmri ilə təsdiq edilmiş «İbtidai istintaq sahəsi üzrə inzibatçılığın təkmilləşdirilməsinə dair» tədbirlər planında da əməkdaşların aidiyyəti sahələr üzrə nəzəri biliklərinin və praktiki hazırlıqlarının artırılması məqsədilə onların digər hüquq-mühafizə orqanlarının tədris müəssisələrində kurslara cəlb olunması ilə bağlı tədbirlərin görülməsi nəzərdə tutulub. Bu məqsədlə Vergilər Nazirliyinin və Respublika Baş Prokurorluğunun birgə əmri ilə sentyabrın 19-dan təlimlərin keçirilməsinə başlanılıb. Təlimləri Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında prokurorluğun müxtəlif idarələrindən cəlb edilmiş 23 təcrübəli əməkdaş aparır.

Oktyabrın 8-dək davam edəcək təlim prosesində dinləyicilərə «Cinayət işinin başlanmasına səbəb və əsas olan hallar», «Cinayət işinin başlanmasının rədd edilməsinin əsasları», «Cinayət məsuliyyətindən azadetmə», «Cinayət işinin ibtidai araşdırılması zamanı müddətlər», «Cinayət təqibinin həyata keçirilməsi», «Sübutlar. Sübut etmənin taktikası», «Ekspertizanın təyin edilməsi», «Əmlak üzərində həbsin qoyulması», «Cinayət işi üzrə icraata xitam verilmənin əsasları», «Prosessual məcburiyyət tədbirlərinin tətbiq olunma əsasları və qaydası», «İqtisadi fəaliyyət sahəsində olan cinayətlər üzrə təqsirin müəyyən edilməsi», «Nümayəndələr və hüquqi varislər, nümayəndələr və hüquqi varislərin cinayət işi üzrə icraata baxılması», «Təqsirləndirilən şəxs qismində cəlbetmə», «Dindirmə və üzləşdirmə» və digər mövzular tədris olunur.

Vergi Cinayətlərinin İbtidai araşdırılması Departamentinin təlimdə iştirak edən əməkdaşlarının təlimlə bağlı fikirlərini bölüşdük.

***Anar Rzayev, Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin İstintaq idarəsinin 3-cü şöbəsinin xüsusilə mühüm işlər üzrə müstəntiqi, 1-ci dərəcəli hüquqşünas:*** «İşimiz iqtisadi sahədəki cinayətkarlıqla mübarizə ilə birbaşa əlaqəli olduğundan, zaman-zaman belə tədbirlərdə iştirak etməyin peşəkar fəaliyyətimizə yalnız müsbət təsiri ola bilər. Təlimin Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində keçirilməsini də çox yüksək qiymətləndirirəm. Oradakı peşəkar təlimçilərlə bu sahədə fikir mübadiləsi aparmaq, onlara suallar ünvanlamaq, ayrı-ayrı mövzular üzərində ətraflı müzakirələr etmək imkanımız olur. Apardığımız cinayət işləri iqtisadi fəaliyyətlə bağlı olduğuna görə, bu sahədə təcrübə digər cinayət işlərinə baxanda azdır. Ona görə də aparılan fikir mübadilələri işimizin gedişatında qaranlıq qalan məqamların aydınlaşdırılmasında bizə yardım edəcək».

***Elvir Abdullayev, İstintaq idarəsinin 4-cü şöbəsinin rəisi, 1-ci dərəcəli hüquqşünas:*** «Departamentimiz hüquq-mühafizə fəaliyyətini həyata keçirdiyindən əməkdaşlarımız prokurorluğun, digər istintaq orqanlarının əməkdaşları kimi, bu sahədə daha təcrübəli olmalıdırlar. Bu baxımdan, Baş Prokurorluq və Vergilər Nazirliyinin birgə təşəbbüsü ilə təşkil edilmiş bu təlimi çox müsbət qiymətləndirirəm. Təlim gələcək fəaliyyətimizdə mühüm rol oynayacaq, işimizin keyfiyyətinə müsbət təsirini göstərəcək».

***Orxan Abbasov, İstintaq idarəsinin 2-ci şöbəsinin müstəntiqi, 1-ci dərəcəli hüquqşünas:*** «Əvvəla onu deyim ki, təlim çox yüksək səviyyədə təşkil olunub. İki qrupa bölünmüş dinləyicilər üçün peşəkar təlimçilər tərəfindən hər gün 2-3 mövzu tədris edilir və bu mövzular ətrafında müzakirələr təcrübəmizi daha da artırmağa imkan yaradır. Bu təlimin bizim üçün əsas müsbət nəticələri o olacaq ki, cinayət və cinayət-prosessual qanunvericiliyi üzrə nəzəri biliklərimiz və praktiki hazırlığımız artacaq. Bu sahədə çoxillik təcrübəyə malik mütəxəssislərin öz təcrübələrini bizimlə bölüşmələri təlimin əməli əhəmiyyətini daha da artırır».

***Taleh Mənsimov, İstintaq idarəsinin 2-ci şöbəsinin xüsusilə mühüm işlər üzrə böyük müstəntiqi, ədliyyə müşaviri:*** «Departament qanunvericiliklə müəyyən edilmiş qaydada vergi hüquqpozmalarına qarşı mübarizə sahəsində təhqiqat, istintaq və əməliyyat-axtarış fəaliyyətini həyata keçirdiyinə görə, bu təlim bizim sahənin ən qaranlıq məqamlarını öyrənmək, bildiyimizi bir daha təkrarlayıb, bilmədiklərimizi öyrənmək baxımından olduqca əhəmiyyətlidir. Mühazirələrdə Baş Prokurorluğun peşəkar əməkdaşları iqtisadi fəaliyyət sahəsində cinayətkarlığa qarşı bizim peşəkarlıq səviyyəmizin artırılması, cinayət və cinayət-prosessual qanunvericiliyin nəzəri və praktiki tərəflərinin mənimsənilməsi üçün böyük səy göstərirlər. Bu təlimdə iştirak etməyimiz gələcək fəaliyyətimizə xeyli müsbət təsir göstərəcək».

**Aytən NƏBİYEVA**

# Vergi islahatları ictimaiyyətin müzakirəsində...

*Ölkə başçısının «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli sərəncamı vergi sistemində yeni genişmiqyaslı islahatlar üçün mühüm baza yaradıb. İslahatların əhatə dairəsi, iqtisadi, sosial və ictimai əhəmiyyəti böyük olduğundan geniş ictimai müzakirələrə yol açıb. Müxtəlif ekspertlər, sahibkarlıq subyektlərinin nümayəndələri və iş adamları vergi sistemində gözlənilən dəyişikliklərə, habelə tətbiq edilməsi nəzərdə tutulan yeniliklərə dair öz fikirlərini bildirir, islahatların gözlənilən ictimai faydası barədə diskussiya aparırlar.*

*«Vergilər» qəzeti də bu fikir mübadiləsinə və həyata keçiriləcək vergi islahatlarının ictimai müzakirəsinə töhfə vermək məqsədilə ixtisaslaşmış mütəxəssislərin, dünya təcrübəsinə bələd olan ekspertlərin, sahibkarların ictimai birliklərinin nümayəndələrinin və iş adamlarının mövqeyini işıqlandırır, onların vergi qanunvericiliyi və inzibatçılığı sahəsində təkliflərinə və şərhlərinə öz səhifələrində yer ayırır.*

## ƏDV-nin diferensiallaşdırılması vergidən yayınma hallarının azalmasına öz töhfəsini verə bilər



Elçin Əkbərov,
*«Consulting Group» şirkətinin direktoru*

Azərbaycan Respublikası Prezidentinin «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri və vergi inzibatçılığının təkmilləşdirilməsi barədə» sərəncamı bundan sonra azad sahibkarlığın daha da stimullaşdırılacağından xəbər verir. Sərəncamda nəzərdə tutulmuş aşağıdakı istiqamətlərə dair fikir bildirməyi məqsədəmüvafiq hesab edirik:

***Transfert qiymətləndirmə***

Transfert qiymətləndirmədən, əsasən, vergilərin yayındırılması və daha aşağı vergi dərəcələri olan ölkələrə ötürülərək orada vergiyə cəlb olunması üçün istifadə olunduğundan, bu məsələ həm vergi ödəyicilərinin, həm də vergi orqanlarının tənzimlənməyə ehtiyac duyduğu bir sahədir. Bu səbəbdən də transfert qiymətləndirmə sahəsində müvafiq metod və qaydaların dəqiqliklə müəyyən edilməsi, anlaşılan olması böyük əhəmiyyət kəsb edir və bu maddə üzrə islahatların aparılmasının nəzərdə tutulması təqdirəlayiq haldır.

***Vergi yükünün azaldılması və ƏDV-nin ticarət əlavəsindən hesablanması***

Məlumdur ki, satışın həyata keçirilməsi zamanı əgər ödəniş 30 gün ərzində edilərsə, bu zaman ödəniş vaxtı verginin hesablanması üçün əsas götürülür, 30 gündən çox vaxt keçdikdə isə elektron vergi hesab-fakturasının verildiyi vaxt (5 gün ərzində verilmədiyi təqdirdə isə malların göndərildiyi və ya təqdim edildiyi, işlərin görüldüyü və xidmətlərin göstərildiyi vaxt) vergitutulan əməliyyatın aparıldığı vaxt hesab olunur. Digər tərəfdən, ƏDV-nin əvəzləşdirilməsi üçün əvvəlcədən ödənişin aparılması tələb olunur ki, bu da bir növ satış ƏDV-sinin hesablanması zamanı hesablama, alış ƏDV-sinin hesablanması zamanı isə kassa metodunun tətbiqinə əsaslanır. Ödənişin gecikdirilməsi halında isə bu amil sahibkarlıq subyektlərində likvidlik probleminə yol açır. Bu səbəbdən də qeyd olunan məsələyə də toxunulmasını vacib hesab edirik.

Həmçinin, ölkə üçün böyük əhəmiyyətini nəzərə alaraq, yeni fəaliyyətə başlamaqla real istehsalat sektoru və tədqiqat-innovasiyalarla məşğul olan kiçik və orta sahibkarlıq subyektlərinə güzəştlərin tətbiq olunmasını təklif edirik. ƏDV-nin ticarət əlavəsindən hesablanması da rəsmi dövriyyədən yayınan bir çox vergi ödəyicisinin leqal fəaliyyət göstərməyə başlayacağını, şəffaflığın artmasına xidmət göstərəcəyini və eyni zamanda malların qiymətində enmə müşahidə olunması ilə əhalinin rifah halının yüksəlməsinə xidmət edəcəkdir.

Yeni təsis olunan turizm obyektləri üçün ƏDV-yə keçid limitinin ləğv edilməsi və ya diferensiallaşdırılması məqsədəuyğundur

***Turizm sektorunda diferensiallaşdırılmış ƏDV-nin tətbiqi***

Kiçik və orta sahibkarlıq subyektlərinə aid edilə bilən yeni təsis olunan otel və istirahət mərkəzləri üçün ƏDV-yə keçid limitinin ləğv edilməsi və ya bu sektor üçün diferensiallaşdırılmış ƏDV-nin tətbiqi, həmin müəssisələr üçün idxal olunan malların idxal rüsum və vergilərdən azad edilməsi sektorun inkişafı üçün əhəmiyyətli addım hesab oluna bilər. Rumıniyada və Gürcüstanda turizm müəssisələri ƏDV-nin bir hissəsindən və ya tamamilə azaddırlar, Gürcüstanın Anaklia və Kobuleti azad turizm zonalarında mənfəət və əmlak vergilərindən 15 illik azadolma tətbiq olunur, İspaniyada ƏDV 16% olduğu halda, turizm müəssisələri üçün bu, 7%-dir və oxşar təcrübəni ölkəmizdə də tətbiq etmək mümkündür. Bildiyimiz kimi, turizm xidmətlərinin əsas istifadəçiləri fiziki şəxslərdir və onlar turizm xidmətlərinin alınması zamanı əldə etdikləri ƏDV-ni əvəzləşdirərək geri ala bilmirlər. Bu baxımdan, turizm kimi müəyyən dəstəyə ehtiyacı olan sahələrdə ƏDV-nin diferensiallaşdırılması bu sahənin regional və beynəlxalq səviyyədə rəqabət qabiliyyətli olmasına kömək edə bilər.

Digər tərəfdən, vergi yükünün azaldılması və diferensiallaşdırılmış ƏDV-nin tətbiqi şəffaflığın daha da artmasına, iqtisadiyyatının sağlamlaşmasına və sahibkarların vergidən yayınma hallarının əhəmiyyətli dərəcədə azalmasına öz töhfəsini verə bilər.

## Əlavə dəyər vergisinin əvəzləşdirilməsi ilə əlaqədar texniki məsələlərin həlli vacibdir



Zemfira Ağayeva,
*«Sahibkar Qadınları» İctimai Birliyinin sədri*

Vergi sahəsində aparılan islahatlar ölkənin iqtisadi imkanlarından səmərəli istifadə olunmaqla qeyri-neft vergi gəlirlərinin dövriyyəyə cəlb edilməsi baxımından çox əhəmiyyətlidir. Azərbaycan dövləti daim sahibkarların mənafeyinə xidmət edən çox ciddi qərarlar qəbul edib, vergi yükünün azaldılması sahəsində tədbirlər həyata keçirilib. Xüsusilə də sadələşdirilmiş vergi sisteminin tətbiq olunması kiçik və orta biznes üçün ən yaxşı imkanlar deməkdir. Bu amillər son nəticədə sahibkarların fəaliyyətinin genişlənməsinə səbəb olub, kiçik və orta sahibkarlığın təşviqinə təkan verib. Ümumiyyətlə, son illər həyata keçirilən vergi siyasəti müxtəlif istiqamətlər üzrə hər bir sahənin inkişafına yol açıb, xüsusilə də prioritet hesab olunan biznes sahələrinin iqtisadiyyatda rolunun artmasına kömək edib.

Hazırda sahibkarlar üçün ən yaxşı mexanizmlərdən biri kimi ƏDV-nin dərəcəsinin dəyişdirilməsi sahəsində görülən tədbirlərin gələcəkdə kiçik və orta biznesin fəaliyyətinə əlavə stimul yaradacağını hesab edirik. İndiyə qədər ƏDV standart olaraq 18 faizlə hesablanıb, bundan sonra isə bu verginin bəzi sahələrin fəaliyyət növünə uyğun tətbiqi nəzərdə tutulur. Bu isə çoxnövlü ƏDV-nin tətbiq edilməsi sayəsində həmin sahələrin inkişafına öz təsirini göstərəcək.

Hazırda ölkədə vergiyə cəlb olunmayan bir sıra sahələr var ki, onların vergi daxilolmalarında payı kiçik olsa da, ümumilikdə vergi potensialının artmasında mühüm rol oynaya bilər. Həmin sahələr üçün, fəaliyyət sahəsindən asılı olaraq, aşağı və orta vergi məbləğləri müəyyən edilə bilər. Bir sıra ölkələrdə olduğu kimi, aylıq sabit vergi norması təyin edilməklə dövlətin vergiyığma bazasının genişlənməsinə nail olmaq mümkündür.

Etiraf etmək lazımdır ki, yoxlamaların azaldılmasından sonra rayonlarda vergi orqanı ilə sahibkarlar arasında mübahisələr, narazılıq yaradan hallar, demək olar ki, aradan qalxıb. Hazırda yoxlamaların sadələşdirilməsi ilə bağlı əlavə addımlar atılır, xüsusilə də yoxlamaların şəffaflaşdırılması sahəsində mühüm layihələr hazırlanır. Bunun sahibkarlığın inkişafına böyük kömək edəcəyini düşünürük və bizneslə məşğul olanların sayının artmasına öz təsirini göstərəcəyinə əminik.

Müasir xidmət şəbəkələrinin istifadəsinin genişləndiyi bir şəraitdə standartlara uyğun olaraq vergi ödəyicilərinə göstərilən xidmətlərin daha da təkmilləşdirilməsi, vergi ödəyiciləri ilə vergi orqanları arasında əməkdaşlıq münasibətlərinin daha sivil formaya çatdırılması yaxşı nəticə verə bilər. Regionlarda fəaliyyət göstərən sahibkarların ictimai təşkilatları, QHT qurumları ilə birgə təşviqat xarakterli görüşlər təşkil olunmalı, Vergi ödəyicilərinə xidmət mərkəzləri ilə bu təşkilatlar arasında əməkdaşlıq genişləndirilməlidir.

Hazırda vergiyə cəlb olunmayan bir sıra sahələr var ki, onların vergi daxilolmalarında payı kiçik olsa da, ümumilikdə vergi potensialının artmasında mühüm rol oynaya bilər

Vergi sahəsində aparılan islahatların sahibkarlara geniş şəkildə çatdırılması üçün məlumatlandırma-maarifləndirmə işinin daha da yaxşılaşdırılması müsbət addım olardı. Sahibkarlığa aid olan məsələlərin hüquqi anlamı və yeni dəyişikliklərlə bağlı məsələlərin ətraflı şəkildə izah olunması üçün mütəxəssislərin bilik və bacarıqlarından istifadə edilməlidir. İslahatlarla əlaqədar həyata keçirilən yeni layihələrin əsas məzmunu sahibkarlara anlaşılan şəkildə çatdırılmalıdır ki, onlar mənimsədikləri yenilikləri düzgün tətbiq edə bilsinlər.

Regionlarda fəaliyyət göstərən xidmət mərkəzlərində sahibkar üçün ayrıca otaqların ayrılması yaxşı olardı. Onlar istədikləri vaxt bu otağa yaxınlaşıb başa düşmədiyi məsələlər barədə vergi orqanı əməkdaşından izahat ala, bəyannamələrin tərtib olunmasında səhvə yol verdiyi halda, onun aradan qaldırılması yollarını öyrənə bilər. Bütün bunların nəzərə alınması sahibkarları daha da həvəsləndirər, öz işini düzgün qurmağa kömək edər.

***Hazırladı:*** **Elbrus CƏFƏRLİ**

# Vergidən yayınmaların qarşısının alınmasında yeni mərhələ



Ülvi YUSİFOV,
*Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi Baş İdarəsinin Beynəlxalq əməkdaşlıq idarəsinin rəisi, BMT-nin Vergi məsələlərində beynəlxalq əməkdaşlıq üzrə Ekspertlər Komitəsinin üzvü*

**Azərbaycan Respublikası Prezidentinin 4 avqust 2016-cı il tarixli sərəncamı ilə təsdiq edilmiş vergi sahəsində aparılacaq islahatların istiqamətlərindən biri də ölkə rezidentlərinin offşor zonalarda yaradılmış müəssisələrlə əməliyyatlarına səmərəli nəzarət mexanizmlərinin qurulmasıdır.**

Offşor zonalarda təsis edilmiş müəssisələrin gəlirləri və faktiki sahibləri haqqında məlumatlar ciddi şəkildə qorunur və həmin ərazilərdə müəssisə yaradılması üçün hər hansı real biznes fəaliyyətinin həyata keçirilməsi tələb edilmir. Offşor zonaların bu xüsusiyyətlərindən istifadə edərək, bəzi vergi ödəyiciləri faktiki təsis edildikləri və fəaliyyət göstərdikləri normal vergitutma rejiminə malik olan dövlətlərdə bəyan olunmalı gəlirlərini müxtəlif sxemlər vasitəsilə vergilərin daha aşağı olduğu və ya ümumiyyətlə vergi ödənilməyən offşor zonalara köçürür və bununla da gəlirin əldə edildiyi dövlətin vergitutma bazasının aşınmasına və vergi daxilolmalarında itkilərə səbəb olurlar.

**Azərbaycan Prezidentinin sərəncamı ilə təsdiq edilmiş islahat istiqamətlərindən biri də ölkə hüdudlarından kənarda əldə edilən gəlirlərin vergiyə cəlb olunmasıdır**

Bir sıra hallarda vergi ödəyiciləri yekun vergilərini minimallaşdırmaq üçün xarici dövlətlərə investisiya qoyuluşlarını birbaşa xarici investisiya formasında deyil, offşor ərazidə təsis etdikləri şirkətlərin vasitəçiliyi ilə həyata keçirir, hətta özlərinin rezident olduqları dövlətlərdə belə, bizneslərini birbaşa deyil, offşor müəssisənin nümayəndəliyi formasında qururlar. Vergi ödəyiciləri tərəfindən bəyan edilməli olan verginin azaldılmasının ən geniş yayılmış üsullarından biri xarici dövlətlərdən olan kontragentlərlə mal və ya xidmətlərin alğı-satqısı əməliyyatlarının birbaşa deyil, özlərinin təsis etdiyi offşor müəssisənin vasitəçiliyi ilə həyata keçirilməsidir. Bu zaman əməliyyat malın və ya xidmətin alınması ilə bağlıdırsa, adətən, onların qiyməti xərclərə aid edilərək vergitutma bazası azaldılır, lakin həmin xərcin hamısı kontragentə ödənilmir və vergiyə cəlb olunmadan offşor yurisdiksiyada toplanır. Yaxud əksinə, əməliyyat malın və ya xidmətin satışı ilə bağlıdırsa, satılan mala və ya xidmətə görə alınacaq ödənişin bir hissəsi yenə də offşorda qalır.

Bundan başqa, mal və ya xidmət alğı-satqısı ilə bağlı əməliyyatlardan vəsaitlərin offşorlarda və ya offşor olmayan, lakin daha aşağı vergilərin tətbiq edildiyi dövlətlərə köçürülməsi qiymət manipulyasiyaları vasitəsilə də reallaşdırılır. Göstərilənlər nəzərə alınaraq, ölkə başçısının sərəncamı ilə təsdiq edilmiş islahatlar çərçivəsində transfer qiymətlərinin tənzimlənməsi ilə bağlı qanunvericilik bazasının yaradılması nəzərdə tutulur.

Transfer qiymətləndirilməsi qarşılıqlı surətdə asılı olan şəxslər arasında, xüsusilə də törəmə şirkətlərlə baş ofis və yaxud baş ofisin digər filial və nümayəndəlikləri arasında malların və xidmətlərin təqdim edilməsi ilə bağlı əməliyyatlarda qiymətlərin adi bazar şəraitində formalaşan qiymətlərdən fərqli müəyyənləşdirilməsi hallarına münasibətdə tətbiq edilir. Müstəqil müəssisələr arasında əməliyyatlar aparılan zaman onların razılaşdırdıqları şərtlər və qiymətlər müstəqil surətdə bazar amillərinin təsiri altında formalaşır. Qarşılıqlı surətdə asılı olan şəxslər arasında əməliyyatlar aparılan zaman isə qiymətin əmələ gəlməsinə təsir edən amillər təkcə sərbəst bazar amilləri deyil, əksər hallarda bu əməliyyatların qiymətlərinə ümumi mənfəətin artırılması və bütün qrupun yekun vergisinin minimallaşdırılması məqsədi də təsir göstərir. Vergi orqanları tərəfindən transfer qiymətlərinin müəyyənləşdirilməsinin məqsədi də qarşılıqlı əlaqəli müəssisələr arasında aparılan əməliyyatlarda formalaşan qiymətlərin müstəqil müəssisələr arasında analoji şərtlərdə formalaşa biləcək bazar qiymətlərinə uyğunluğunun təmin edilməsi və hesablanmış transfer qiymətləri əsas götürülməklə vergilərin hesablanması və ya bəyan edilmiş vergi məbləğlərinə düzəliş edilməsindən ibarətdir.

Dünyada mövcud olan transfer qiymətəmələgəlməsi sistemlərinin əksəriyyətinin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının standartları və qaydalarına əsaslanmasına baxmayaraq, bu prinsiplərdən kənarlaşmalar da mövcuddur. Vergilər Nazirliyi tərəfindən müvafiq sahədə beynəlxalq təcrübə mütəmadi olaraq öyrənilir, ən qabaqcıl və məqsədəmüvafiq hesab edilən təcrübələrin ölkəmizdə tətbiqi istiqamətində işlər aparılır və bununla bağlı transfer qiymətəmələgəlməsi üzrə qanunvercilik və inzibatçılıq prosedurlarının yaradılması üçün Avropa İttifaqının «tvinninq» yardım aləti çərçivəsində müvafiq layihənin həyata keçirilməsi barədə razılıq əldə edilib.

Ölkə başçısının sərəncamı ilə müəyyənləşdirilmiş islahatların həyata keçirilməsi nəticəsində yaradılması nəzərdə tutulan və offşorlarda təsis edilmiş müəssisələrin iştirakı ilə müxtəlif sxem və strukturlardan istifadə edərək gəlirlərini Azərbaycan Respublikasında vergidən yayındıran şəxslərin müəyyənləşdirilməsinə xidmət edəcək mexanizmlərin, eləcə də transfer qiymətlərinin tətbiqi ilə bağlı qanunvericilik və inzibatçılıq prosedurlarının məqsədi bu cür halların qarşısının alınması və bu yollarla vergidən yayındırılan məbləğlərin qanunvericiliyə müvafiq qaydada vergiyə cəlb edilməsini və bununla da vergi daxilolmalarının artımını təmin etməkdən ibarətdir.

İkiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlər də daxil olmaqla, digər dövlətlərlə vergi məlumatlarının mübadiləsi üçün Azərbaycanda hüquqi əsas təşkil edən kifayət qədər geniş hüquq-müqavilə bazası mövcuddur və bu baza ildən-ilə genişləndirilir. Hazırda dünyanın 111 dövlətinin vergi orqanları ilə vergi məlumatlarının mübadiləsinə imkan verən beynəlxalq müqavilələr imzalanıb. Bu, əsasən, sorğu əsasında həyata keçirilən məlumat mübadiləsidir. Ölkə Prezidentinin sərəncamı ilə təsdiq edilmiş islahat istiqamətlərindən biri də ölkə hüdudlarından kənarda əldə edilən gəlirlərin vergiyə cəlb olunmasının təmin edilməsi üçün digər dövlətlərlə məlumatların avtomatik mübadiləsinin təşkili də nəzərdə tutulmuşdur və bu istiqamətdə tədbirlər görülməkdədir. Avtomatik məlumat mübadiləsinin təmin ediləcəyi dövlətlərlə, mütəmadi olaraq, hər bir vergi ili bitdikdən müəyyən müddət ərzində həmin dövlətlərdən avtomatik qaydada Azərbaycan rezidenti olan hüquqi və fiziki şəxslərin həmin vergi ili ərzində orada əldə etdikləri gəlirlərin növləri və məbləğləri barədə ətraflı məlumatların elektron və kağız formatında əldə olunması təmin ediləcəkdir ki, bu da vergi orqanları üçün ölkə hüdudlarından kənarda gəlir əldə edən və bu gəlirləri könüllü bəyan etməyən şəxslərin müəyyənləşdirilməsi və qanunamüvafiq qaydada vergiyə cəlb olunması üçün əlavə məlumat mənbəyidir.

2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətlərindən biri də Azərbaycan Respublikası ilə ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq sazişlərin inzibatçılıq qaydalarının sadələşdirilməsidir. Hazırda 51 dövlətlə imzalanmış belə sazişlərin inzibatçılıq qaydalarının təkmilləşdirilməsi ilə bağlı işlər çərçivəsində rezident və qeyri-rezident şəxslərdən daxil olan müraciətlərin elektronlaşdırılması və sadələşdirilməsi, ərizə formalarının və tələb olunan inzibati prosedurların azaldılması nəzərdə tutulur ki, bunun da həm müraciət edən şəxslər tərəfindən müvafiq ərizələrin doldurulmasına sərf olunan vaxtın və inzibati yükün azalmasına və eyni zamanda, vergi orqanları tərəfindən müraciətlərə baxılmasının sürətləndirilməsi və səmərəliliyinin artırılmasına xidmət edəcəyi gözlənilir.

Sərəncama uyğun olaraq həyata keçirilməsi nəzərdə tutulan tədbirlər vergi inzibatçılığının beynəlxalq tələblərə tam uyğunlaşdırılmasına və digər ölkələrin qabaqcıl təcrübələrinin Azərbaycanda daha geniş tətbiqinə şərait yaradacaq.

# Kiçik sahibkarlığın inkişafı istiqamətində mühüm addım

Azərbaycanda Amerika Ticarət Palatası («AmCham») Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində «ABAD» (Ailə Biznesinə Asan Dəstək) mərkəzləri publik hüquqi şəxsin yaradılmasını kiçik və orta sahibkarlığın inkişafına dəstəyin növbəti nüminəsi kimi qiymətləndirib. «AmCham»ın icraçı direktoru Natəvan Məmmədova bildirib ki, «ABAD»ın əsas məqsədi kiçik və orta sahibkarlığı dəstəkləyən layihələri həyata keçirmək və bu layihələri maliyyələşdirmək məqsədilə fondun yaradılması, hədəf auditoriyasının müəyyənləşdirilməsi və təsərrüfat məhsullarının istehsalı üçün müasir texnoloji istehsal avadanlıqlarından istifadənin təşkili, müxtəlif funksional xidmətlərin göstərilməsindən ibarət olacaq ki, bu da sahibkarlıq sinfinin hüquqi-texniki, maliyyə təminatında mühüm rol oynayacaq.

Palata rəhbəri hesab edir ki, ailə təsərrüfatlarının, kiçik və orta sahibkarların istehsal etdiyi məhsulların sertifikatlaşdırılmasının sadələşdirilməsi və «bir pəncərə»nin tətbiqi, marketinq, maliyyə-mühasibat işlərinin aparılması sahəsində meydana çıxan problemlərin aradan qaldırılması, satış bazarlarına çıxışının təşkili və nəzərdə tutulan digər tədbirlərin həyata keçirilməsi regionlarda sahibkarlığın stimullaşdırılmasına səbəb olacaq: «Bu, Azərbaycanın ucqar yerlərində kənd təsərrüfatı və digər sahələrin sonrakı inkişafı üçün əsas olacaq. İqtisadi diversifikasiya və daha yüksək müqayisəli üstünlüklə müxtəlif malların ixracında da təsirsiz ötüşməyəcək. Bundan başqa, regionlarda insanların sosial-iqtisadi rifahı yaxşılaşacaq. Güclənmiş logistika, bazara və biznes funksiyalarına çıxışdan gələn maliyyə axını biznes zəncirinə əlavə dəyər qatacaq. Son olaraq, hüquqi məsələlər haqqında az məlumat və biliyi olanlar «bir pəncərə» prinsipindən yararlana biləcəklər. Ümumilikdə, fərman vətəndaşların ölkənin sosial-iqtisadi inkişafında aktiv iştirakını təmin edəcək, regionlarda sahibkarlığı inkişaf etdirəcək və müxtəlif xidmət və maliyyə resurslarına çıxışı olan rəqabətqabiliyyətli ailə biznesləri yaranmasına təkan verəcək».

**ELBRUS**

# 2017-ci ilin dövlət büdcəsinin gəlir və xərcləri ilə bağlı proqnozlar açıqlanıb

Nazirlər Kabineti Azərbaycan Respublikasının 2017-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, Azərbaycan Respublikasının 2017-ci il və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri haqqında qərar

2017-ci ilin dövlət büdcəsinin gəlirləri 15,955 mlrd. manat, xərcləri 16,6 mlrd. manat (o cümlədən, mərkəzləşdirilmiş gəlirləri 15 mlrd. 312 mln. 619 min manat, yerli gəlirləri 642,381 mln. manat, mərkəzləşdirilmiş xərcləri 15 mlrd. 881,730 mln. manat, yerli xərcləri 718,270 mln. manat) məbləğində təsdiq edilməsi proqnozlaşdırılır. Büdcənin 645 mln. manatlıq kəsirlə icra olunması nəzərdə tutulub. 2017-ci ildə dövlət büdcəsi kəsirinin ÜDM-ə nisbəti 1% təşkil edəcək. Dövlət büdcəsi kəsirinin maliyyələşdirilməsi özəlləşdirmədən, daxili və xarici borclanmadan daxilolmalar, xarici qrantlardan daxilolmalar və 2017-ci ilin 1 yanvar tarixinə dövlət büdcəsinin vahid xəzinə hesabının qalığı hesabına həyata keçiriləcək.

## 2017-ci ildə dövlət büdcəsi gəlirləri üzrə proqnozun 7210 milyon manatı Vergilər Nazirliyinin payına düşür

Neft sektoru üzrə büdcə gəlirlərinin dövlət büdcəsi gəlirlərinin tərkibində xüsusi çəkisi 49,2% və ya 7855,0 mln. manat nəzərdə tutulur ki, bu da 2016-cı ilin proqnozu ilə müqayisədə 1370,0 mln. manat və ya 14,9% azdır. Neft sektoru üzrə büdcə gəlirlərinin 77,7%-i və ya 6100,0 mln. manatı ARDNF-dən transfertlər (cari ilin proqnozu ilə müqayisədə 1515,0 mln. manat, yaxud 19,9% az), 22,3%-i və ya 1755,0 mln. manatı isə vergi orqanlarının xətti ilə neft sektorundan daxilolmalar (cari ilin proqnozu ilə müqayisədə 145,0 mln. manat və ya 9,0% çox) təşkil edir. Vergi orqanlarının xətti ilə neft sektoru üzrə daxilolmalarda Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (ARDNŞ) üzrə büdcə ödənişləri 1280,0 mln. manat və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) üzrə mənfəət vergisi 475,0 mln. manat nəzərdə tutulur ki, bu da vergi orqanları tərəfindən neft sektoru üzrə daxilolmaların müvafiq olaraq 72,9 və 27,1%-ni təşkil etməklə cari ilin proqnozu ilə müqayisədə müvafiq olaraq 40,0 mln. manat və 105,0 mln. manat çoxdur.

Qeyri-neft sektoru üzrə büdcə gəlirlərinin dövlət büdcəsi gəlirlərində xüsusi çəkisi 50,8% və ya 8100,0 mln. manat nəzərdə tutulur ki, bu da 2016-cı ilin proqnozu ilə müqayisədə 503,0 mln. manat və ya 6,6%, 2015-ci ilin faktı ilə müqayisədə isə 821,9 mln. manat və ya 11,3% çoxdur. Qeyri-neft sektoru üzrə büdcə gəlirlərinin 67,3%-i və ya 5455 mln. manatı vergi orqanlarının xətti ilə qeyri-neft sektorundan daxilolmalar, 27,2%-i və ya 2200 mln. manatı Dövlət Gömrük Komitəsindən daxilolmalar, 5,5 %-i və ya 445 mln. manatını isə digər gəlirlər təşkil edir. 2016-cı ilin proqnozu ilə müqayisədə vergi orqanlarının xətti ilə qeyri-neft sektorundan daxilolmalar 55 mln. manat, yaxud 1%, Dövlət Gömrük Komitəsindən daxilolmalar 390 mln. manat, yaxud 21,5%, digər gəlirlər isə 58 mln. manat yaxud 15% çoxdur.

2017-ci ildə dövlət büdcəsi gəlirləri üzrə proqnozun 7210 mln. manatı Vergilər Nazirliyinin xətti ilə daxilolmaların, 6100 mln. manatı ARDNF-dən transfertlərin, 2200 mln. manatı Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmaların, 445 mln. manatı isə digər gəlirlərin payına düşür.

2017-ci il dövlət büdcəsinin xərcləri ÜDM-in 26,6%-i səviyyəsində nəzərdə tutulur ki, bu da 2016-cı illə müqayisədə 4,4 faiz-bənd azdır. 2017-ci il dövlət büdcəsinin xərcləri 16600 mln. manat proqnozlaşdırılır ki, bu da 2016-cı illə müqayisədə 1895 mln. manat və ya 10,2% az deməkdir.

2017-ci il dövlət büdcəsinin xərclərinin strukturuna daxil olan cari xərclərə ümumi xərclərin 67,3%-i həcmində və ya 11174,8 mln. manat (əvvəlki ilə nisbətən 930,8 mln. manat və ya 7,7% az), əsaslı xərclərə ümumi xərclərin 22%-i həcmində və ya 3656,4 mln. manat (əvvəlki ilə nisbətən 957,9 mln. manat və ya 20,8% az), dövlət borcuna xidmətlə bağlı xərclərə ümumi xərclərin 10,7%-i həcmində və ya 1768,8 mln. manat (əvvəlki ilə nisbətən 6,3 mln. manat və ya 0,4% az) vəsait yönəldiləcək.

2017-ci ildə dövlət büdcəsi xərclərinin 4884,4 mln. manatı və ya 29,4%-i konkret proqram və tədbirlərin maliyyələşdirilməsi üçün nəzərdə tutulub. İqtisadi təsnifata uyğun olaraq, 2017-ci il dövlət büdcəsində əsas fondlara əsaslı vəsait qoyuluşu xərcləri üçün (dövlət əsaslı vəsait qoyuluşu, əsas vəsaitlərin, xüsusi təyinatlı alışların həyata keçirilməsi, əsaslı tikinti, təmir və s.) 3656,4 mln. manat və ya xərclərin 22%-i həcmində, əməyin ödənişi üçün 4169,4 mln. manat və ya xərclərin 25,1%-i həcmində, sair xərclərin (ehtiyat fondları, dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri və s.) maliyyələşdirilməsi üçün 1553,4 mln. manat və ya xərclərin 9,4%-i həcmində, subsidiyalar və cari transfertlər üzrə ödənişlər üçün 1103,1 mln. manat və ya xərclərin 6,6%-i həcmində, təqaüdlər və sosial müavinətlər üçün 2090,6 mln. manat və ya xərclərin 12,6%-i həcmində, dərman, sarğı ləvazimatlarının və materialların alınması üçün 209,7 mln. manat və ya xərclərin 1,3%-i həcmində, ərzaq məhsullarının alınması üçün 346,8 mln. manat və ya xərclərin 2,1%-i həcmində, kommunal və kommunikasiya xidmətləri haqqının ödənilməsi xərcləri üçün 435,7 mln. manat və ya xərclərin 2,6%-i həcmində, digər istehlak mal və materiallarının alınması üçün (inventar və avadanlığın alınması və digər alışlar və xidmətlər) 385,6 mln. manat və ya xərclərin 2,3%-i həcmində, idarənin saxlanılması üçün 273 mln. manat və ya xərclərin 1,6%-i həcmində, abadlaşdırma, geoloji-kəşfiyyat, topoqrafiya-geodeziya axtarış və elmi tədqiqat xidmətləri haqqının ödənilməsi üçün 198,9 mln. manat və ya xərclərin 1,2%-i həcmində, qrantlara və digər ödənişlərə 145,6 mln. manat və ya xərclərin 0,9%-i həcmində, öhdəliklər üzrə maliyyə əməliyyatlarına 1387,2 mln. manat və yaxud 8,4%-i həcmində, faizlər üzrə ödənişlərə 376,4 mln. manat və yaxud 2,3%-i həcmində, digər xərc maddələri üzrə 268,2 mln. manat və ya xərclərin 1,6%-i həcmində vəsait nəzərdə tutulub.

Dövlət büdcəsi xərclərinin strukturunun və tərtibi prosesinin təkmilləşdirilməsi və ünvanlılığın daha da artırılması istiqamətində işlərin davamı olaraq 2017-ci il dövlət büdcəsi xərclərində iqtisadi təsnifatın «Sair xərclər» paraqrafı üzrə nəzərdə tutulmuş vəsaitin məbləği 2016-cı illə müqayisədə 1022,0 mln. manat və ya 39,7% azalıb.

2017-ci il dövlət büdcəsinin xərclərində sosialyönlü xərclərin (büdcə xərclərinin iqtisadi təsnifatına uyğun olaraq əməyin ödənişi, pensiya və müavinətlər, dərman, sarğı ləvazimatları və materiallarının, ərzaq məhsullarının alınması üzrə xərclərin cəmi) xüsusi çəkisi 41,1% olmaqla (əvvəlki illə müqayisədə 6,6 faiz-bənd çox), 6816,5 mln. manat vəsait proqnozlaşdırılıb ki, bu da 2016-cı illə müqayisədə 422,9 mln. manat və ya 6,6% çoxdur.

2017-ci il dövlət büdcəsində elm, təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət xərcləri üzrə məqsədli dövlət proqramlarının və tədbirlərin maliyyə təminatı üçün 768,9 mln. manat vəsait nəzərdə tutulub.

İcmal büdcənin tərkib hissəsi olan və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin gəlir və xərcləri 3 mlrd. 400 mln. manat proqnozlaşdırılır. Fondun xərclərinin 37,4%-i və ya 1 mlrd. 270 mln. manatı dövlət büdcəsindən birbaşa transfert, 62,6%-i və ya 2 mlrd. 130 mln. manatı məcburi dövlət sosial sığorta haqları və sair daxilolmalar hesabına örtüləcək.

Dövlət Neft Fondunun 2017-ci il üçün büdcəsinin gəlirləri 8 mlrd. 370,6 mln. manat nəzərdə tutulur ki, bu da 2016-cı illə müqayisədə 4 mlrd. 889,1 mln. manat və ya 2,4 dəfə çoxdur.

Azərbaycan Respublikasının 2017-ci il icmal büdcəsinin gəlirləri 19720,7 mln. manat və ya əvvəlki ilə nisbətən 5559,9 mln. manat (39,3%) çox, xərcləri 20967,2 mln. manat və ya əvvəlki ilə nisbətən 3599,4 mln. manat (14,7%) az nəzərdə tutulub.

2017-ci ilin icmal büdcəsinin kəsiri 1246,5 mln. manat və ya nəzərdə tutulan ÜDM-in 2%-i Dövlət Neft Fondunun gəlirləri nəzərə alınmadan icmal büdcənin kəsiri 9617,1 mln. manat və ya nəzərdə tutulan ÜDM-in 15,7%-i həcmində olacaq.

# Borclu vergi ödəyicilərinin əmlakı siyahıya alınıb

Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamenti tərəfindən paytaxtın müxtəlif rayonlarında fəaliyyət göstərən bir sıra borclu vergi ödəyicilərində əmlakın siyahıya alınması tədbirləri keçirilib.

Nizami rayonu, B.Çobanzadə küçəsi, məhəllə 2403 ünvanda yerləşən «Emin-N» MMC-yə məxsus «Golden ring» şadlıq sarayının fəaliyyəti araşdırılarkən onun 92 min 991 manat vergi borcunun olduğu müəyyən edilib. Vergi ödəyicisinə borcun ödənilməsi barədə bildiriş göndərilsə də, borc qanunvericilikdə nəzərdə tutulan müddətdə ödənilmədiyindən, Vergi Məcəlləsinin 89-cu maddəsinə əsasən, vergi borcunun ödənilməsini təmin etmək məqsədilə əmlakın siyahıya alınması haqqında qərar çıxarılıb və obyektdəki 38.900 manat məbləğində mebel və məişət avadanlıqları müvafiq qaydada siyahıya alınıb.

Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, S.Mehmandarov küçəsi, ev 5A ünvanda yerləşən fiziki şəxs Quliyev Rüfət Faiq oğluna məxsus «Xoşbəxtlik» şadlıq evinin də 58.344 manat vergi borcunun ödənilməsini təmin etmək məqsədilə əmlakın siyahıya alınması haqqında qərar çıxarılıb və obyektdəki 24.250 manat dəyərində mebel və məişət avadanlıqları siyahıya alınıb.

# BƏT-lə əməkdaşlıq çərçivəsində yeni prioritetlər formalaşdırılır

Ötən həftə Azərbaycan Hökuməti ilə Beynəlxalq Əmək Təşkilatı (BƏT) arasında «2016-2020-ci illər üçün layiqli əmək üzrə ölkə Proqramı»nın qəbul edilməsi və Azərbaycan Respublikasında Sosial və iqtisadi məsələlər üzrə üçtərəfli Komissiyanın yaradılması ilə bağlı tədbir keçirilib. Tədbirdə çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov bildirib ki, dünya iqtisadiyyatına sürətli inteqrasiya, transmilli korporasiyaların genişmiqyaslı fəaliyyəti, sahibkarlığın inkişafına hərtərəfli şəraitin yaradılması, sosial-iqtisadi məsələlərin həlli məqsədilə uzunmüddətli beynəlxalq və dövlət proqramlarının qəbul edilməsini aktuallaşdırır. Bütün bunlar, həmçinin, milli əmək hüquqları sisteminin mütərəqqi dünya təcrübəsi əsasında təkmilləşdirilməsini, həmin məsələlərin həllinə sosial tərəfdaşların daha yaxından cəlb edilməsini zəruri edib: «Ötən dövr ərzində BƏT-lə əməkdaşlıq çərçivəsində ölkədə məşğulluq strategiyası və onun icrasına dair dövlət proqramları qəbul edilib, əhalinin məşğulluğu, yoxsulluğun aradan qaldırılması üzrə siyasətlər formalaşdırılıb. Əmək qanunvericiliyi sistemi təkmilləşdirilib, əmək münasibətlərinin tərəflərin hüquq bərabərliyi prinsipi üzrə qurulması təmin edilib».

«2016-2020-ci illər üçün layiqli əmək üzrə ölkə Proqramı»nın xüsusi önəmini vurğulayan nazir qeyd edib ki, burada qarşıya qoyulan bir sıra sosial-iqtisadi məsələlərin həlli beynəlxalq təcrübəyə, iqtisadiyyatı inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlərin təcrübəsinə əsaslanacaq. BƏT isə həm beynəlxalq təcrübə mübadiləsi, həm siyasətlərin müəyyənləşdirilməsi, həm də nəzərdə tutulan texniki dəstək baxımından yardım göstərəcək. S.Müslümov BƏT-lə əməkdaşlıq çərçivəsində qəbul edilən bu sənədin artıq ikinci ölkə proqramı olduğunu, bundan əvvəl isə 2006-2009-cu illər üzrə proqramın icra edildiyini diqqətə çatdırıb: «Yeni qəbul edilən proqramın prioritetləri beynəlxalq əmək normalarının və əmək sahəsində əsas prinsip və hüquqların təşviqi, sosial dialoqun inkişafı, əmək bazarında aktiv əmək bazarı proqramlarının həyata keçirilməsi vasitəsilə məşğulluğun artırılmasıdır. Eyni zamanda, ölkədə sahibkarlıq imkanlarının genişləndirilməsi, əməyin mühafizəsinin gücləndirilməsi və sosial müdafiə sisteminin genişləndirilməsi də proqramın prioritetləri sırasındadır. Sənəddə layiqli iş yerlərini və inklüziv artımı təşviq edən milli məşğulluq strategiyasının formalaşdırılaraq həyata keçirilməsi, gənclərə yönəlmiş aktiv əmək bazarı və özünüməşğulluqla bağlı əmək bazarı proqramlarının hazırlanaraq icrasının sosial tərəfdaşlarla birgə təmin edilməsi nəzərdə tutulur. Sığorta prinsiplərinə əsaslanan işsizlikdən sığorta sisteminin tətbiqi, əməyin idarə edilməsi və gələcək dövr üçün mühüm önəm kəsb edən bir sıra sosial-iqtisadi məsələlər də proqramda öz əksini tapıb».

Tədbirdə Beynəlxalq Əmək Təşkilatının, BMT İnkişaf Proqramının, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyanın, aidiyyəti hökumət və qeyri-hökumət qurumlarının nümayəndələri də iştirak ediblər.

**AYTƏN**

# Yerli və xarici investorlar əlverişli biznes şərtlərindən yararlanırlar

Azərbaycanda investisiyaların təşviqi məqsədi daşıyan qanunvericilik bazası həm yerli müəssisələrin, həm də xarici investisiyalı şirkətlərin sayında artıma səbəb olmuşdur. Fiziki və hüquqi şəxslərin dövlət qeydiyyatının Vergilər Nazirliyi tərəfindən elektron qaydada «bir pəncərə» sistemi vasitəsilə həyata keçirilməsi sahibkarlıq fəaliyyətinə başlamaq üçün əlverişli şəraitin yaranmasına gətirib çıxarmışdır.

Qanunvericiliyə əsasən, Azərbaycanda hüquqi şəxslərin elektron dövlət qeydiyyatı rüsumsuz həyata keçirilir. Ölkəmizdə biznesə başlamaq üçün 6 prosedur əvəzinə cəmi 3 prosedur yerinə yetirilir, tələb olunan sənədlərin sayı isə 7-dən 2-dək azaldılmışdır. Yeni müəssisə yaratmaq istəyən sahibkarlar qeydiyyat prosesinə cəmi bir neçə dəqiqə vaxt sərf edirlər.

Bu imkanlar, təbii ki, biznes mühitinə də müsbət təsirini göstərməkdədir. Təkcə 2016-cı ilin 8 ayı ərzində ölkə üzrə 75 min 806 vergi ödəyicisi qeydiyyata alınmışdır. Statistik Vahidlərin Dövlət Registrində qeydiyyatdan keçmiş tam xarici investisiyalı və birgə müəssisələr əsasən Türkiyə, Böyük Britaniya, Rusiya, İran, ABŞ, Almaniya və digər ölkələrin sahibkarları tərəfindən yaradılmışdır. Azərbaycanda xarici ölkələr və beynəlxalq təşkilatların vəsaitləri hesabına əsas kapitala yönəldilmiş investisiyaların 88 faizindən çoxu Birləşmiş Krallıq, Türkiyə, Yaponiya, Norveç, İsveç, Rusiya, İran, Malayziya və ABŞ sərmayədarlarına məxsusdur.

Ölkəmizdə texnopark modelinin formalaşdırılması və bu modelin əsas iqtisadi subyektlərindən hesab olunan sənaye texnoparklarının inkişaf etdirilməsi üçün dövlət tərəfindən müxtəlif stimullaşdırıcı addımların atılması, o cümlədən vergi güzəştlərinin tətbiqi öz müsbət nəticələrini verməkdədir. Hazırda 4 sənaye parkı (Sumqayıt Kimya Sənaye Parkı, Balaxanı, Qaradağ, Mingəçevir sənaye parkları), 2 yüksək texnologiyalar parkı (Pirallahı Yüksək Texnologiyalar Parkı və Mingəçevir Yüksək Texnologiyalar Parkı), eləcə də 1 sənaye məhəlləsi (Neftçala) yaradılıb. Artıq bu obyektlərdə bir sıra yeni layihənin icrasına başlanılmışdır və geniş əhatəli işlər aparılır. Təkcə Sumqayıt Kimya Sənaye Parkının 4 rezidenti tərəfindən parkın ərazisində istehsal müəssisələrinin yaradılmasına 1 milyard dollardan çox investisiya yatırılması planlaşdırılır.

## 2016-cı ilin 8 ayı ərzində ölkə üzrə 75 min 806 vergi ödəyicisi qeydiyyata alınıb

Bundan başqa, ölkə başçısının tapşırığına uyğun olaraq, kiçik və orta sahibkarlığın dəstəklənməsi, regionların sənaye potensialından istifadənin genişləndirilməsi məqsədilə hər bir rayonda yaradılması gündəmdə olan ayrıca sənaye məhəllələrində yeni müəssisələr təşkil olunacaq və bu, əhalinin işsizlik probleminin aradan qaldırılmasında mühüm rol oynayacaq.

Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) bir sıra şirkətləri isə aqrar sektorda investisiya tələb edilən sahələri araşdırmağa başlamışlar. Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, BƏƏ şirkətləri Azərbaycandan öz ölkələrinə kənd təsərrüfatı məhsullarının ixrac edilməsi məqsədilə aqroparkların, konservləşdirilmiş meyvə və tərəvəzin ixracı, müasir tipli ət və süd emalı müəssisələrinin və iri heyvandarlıq təsərrüfatlarının yaradılması, Azərbaycanda istehsal olunan meyvə-tərəvəz məhsullarının BƏƏ-yə və digər ölkələrə ixracı məqsədilə logistik bazanın inşa edilməsi və digər məsələlərlə bağlı Azərbaycan hökuməti ilə müzakirələrə başlamışlar.

**Rəşad SADIQOV**

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2013-cü ilin oktyabr və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2016-cı ilin avqust və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

**Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi**

## vergi təqvimi

| OKTYABR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | | 1 | 2 |
| 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 |
| 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 |
| 24 / 31 | 25 | 26 | 27 | 28 | 29 | 30 |

*Qeyd: Verginin ödənilmə və bəyannamənin (o cümlədən arayışın) verilmə müddətinin sonuncu günü təqvimdə yaşıl rənglə qeyd edilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilir.*

**Ödənilən vergi:**

17 oktyabr - «(1)» və «(2)».
20 oktyabr - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «9», «(9-1)», «10.1», «10.2», «10.3» və «11».

**«(1) və (2)» - Gəlir və Mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

Birinci metod: Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

İkinci metod: Cari rübdəki gəlirin məbləğini keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir.

Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda vergi orqanı birinci metodu tətbiq edir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür. Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**(«1-2») - Gəlir vergisi (İdman-mərc oyunları üzrə)** İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır. İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üzrə hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxs hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməli verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyir.

**(«9-1») - Sadələşdirilmiş vergi (Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə)** - Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.

Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi**: Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən yol verilən korrupsiya və digər hüquqpozma halları ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik baş idarəsinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik baş idarəsinə» qeydi olan məktubları göndərməklə.

  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik baş idarəsinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.

  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik baş idarəsi;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

Vergilər Nazirliyi

beynəlxalq panoram

## ABŞ Avropa İttifaqının qərarına kəskin etirazını bildirib

Avropa Komissiyası Amerikanın «Apple» korporasiyasının 13 milyard avro məbləğində vergi borcunun olması barədə qərar çıxardıqdan sonra ABŞ-ın maliyyə naziri Ceykob Lyu buna qarşı kəskin və qəzəbli reaksiya göstərmişdir. «Avropa Komissiyasının öz təhqiqatlarına yanaşmasındakı yeniliklər keçmiş tarixlə natəmiz cərimələrin tələb olunmasına gətirib çıxaracaq ki, bu da qəbul edilmiş hüquqi prinsiplərlə ziddiyyət təşkil edir, ayrı-ayrı ölkələrin vergi qanunlarını sual altında qoyur və bütövlükdə Avropanın biznes iqliminin korlanması təhlükəsini yaradır», - Ceykob Lyu «Wall Street Journal» qəzetinə müsahibəsində demişdir.

ABŞ Maliyyə Nazirliyinin problemləri başa düşüləndir. Məsələ bundadır ki, «Apple» şirkəti artıq özünün Amerikadakı vergi bəyannamələri üçün xaricdəki vergitutmaya görə endirim xahiş edə bilər, Maliyyə Nazirliyi isə şirkətin xahişini yerinə yetirməli olacağı halda vəsait itirmiş olacaq.

Bunun Avropaya dəxli olub-olmaması isə müəmma olaraq qalır. Çünki «Apple» şirkətinin vergidən yayınmaq üçün vergi sığınacağı tapması Avropa İttifaqının günahı deyil. Buna baxmayaraq, ABŞ-ın bu narahatlıqları Brüsselə çatdırılacaq. Ceykob Lyunun bəyan etdiyi kimi, konqresin deputatları, biznesmenlər və ABŞ-dakı vergi bazarının aparıcı mütəxəssisləri Avropa Komissiyasının qərarına kəskin reaksiya göstərmişlər. İndi məsələ belə qoyulur ki, ABŞ hökuməti bundan sonra Aİ-yə qarşı hansı cəzanı müəyyənləşdirəcək. Hazırda hökumət Amerika şirkətlərini öz gəlirlərini ABŞ-a qaytarmağa necə məcbur etməyi və bununla da Avropada vergi ödəməkdən vaz keçməyi müzakirə edir.

«ABŞ-ın mövcud Vergi Məcəlləsində olan çoxsaylı boşluqlar korporasiyalara imkan verir ki, gəlirlərini vergilərin yüksək olduğu yurisdiksiyalardan vergilərin az olduğu və ya heç olmadığı ölkələrə keçirməklə vergi ödənişlərini süni şəkildə azaltsınlar», - Lyu demişdir. O vurğulamışdır ki, bu sahədə ciddi islahatların aparılmasına ehtiyac var.

## Niderland vergi islahatlarına başlayır



Hökumətin həyata keçirməyə planlaşdırdığı vergi islahatı ölkədə qüvvədə olan vergi rejimini sadələşdirməyi və vergi inzibatçılığını təkmilləşdirməyi nəzərdə tutur. Maliyyə Nazirliyinin elan etdiyi yeni vergi islahatına əsasən, kiçik və orta biznes, eləcə də vətəndaşların əksəriyyəti üçün vergilər azaldılacaq, bir sıra vergi prosedurları isə sadələşdiriləcək. Bununla yanaşı, 2018-ci ilin yanvarından dividendlərdən vergi tutulması qaydaları da dəyişdiriləcək. Bir qədər mülayimləşmə olsa da, hökumət vergidən yayınmaya qarşı sərt mübarizə siyasətini davam etdirəcək.

Plana əsasən, korporativ vergini ən aşağı dərəcə ilə - 20%-lə ödəyəcək şirkətlərin sayı artacaq. Bu vergi dərəcəsi hazırda illik 200 min avro məbləğində gəlirə tətbiq edilir. Bundan artıq gəlirlərə isə əsasən, 25%-lik dərəcə tətbiq olunur. Ölkə vətəndaşlarından tutulan gəlir vergisi ilə bağlı nazirliyin məlumatında bildirilir ki, «yaşlı insanlar və gənclər, bir körpə uşağı olan ailələr, eləcə də ailələrin və vətəndaşların ayrı-ayrı kateqoriyaları 2017-ci ildən etibarən indikinə nisbətən az vergi ödəyəcəklər».

Ölkənin maliyyə məsələləri üzrə dövlət katibi Erik Veybs parlamentə müraciətində bildirmişdir ki, hökumət «Niderlandın gələcəkdə biznes üçün cəlbedici ölkə olaraq qalmasını təmin etmək niyyətindədir. İstənilən vergi islahatı sistemi daha da sadələşdirilməlidir, - Veybs demişdir. - Bütün hallarda hökumət vergidən yayınma hallarına qarşı daha fəal mübarizə aparmaqda davam edəcəkdir».

## Elektron bəyannamələrin sadələşdirilməsinə ehtiyac var

Avstraliyanın vergi idarəsinin məlumatına əsasən, iyulun 10-dan bəri vergi bəyannaməsini «myTax» elektron sistemi vasitəsilə göndərənlərin üçdə birindən çoxu bu işə cəmi 10 dəqiqə vaxt sərf etmişdir. Lakin vergi agentləri xəbərdarlıq edirlər ki, vergi bəyannaməsini müstəqil şəkildə dolduran ödəyicilər məlumatsızlıq və ya elementar səhvlər ucbatından verginin azaldılması maddəsini buraxa bilərlər.

Ölkənin vergi idarəsi tərəfindən bildirilmişdir ki, artıq yığılmış verginin qaytarılması şəklində indiyədək ödəyicilərə 4 milyard dollar vəsait qaytarılmışdır ki, bu da adambaşına təxminən 2316 dollar deməkdir. Qaytarma prosesi isə təxminən bir həftə çəkir.

Avstraliya vergi idarəsinin vergitutma komissarının müavini Qrehem Vaytın sözlərinə görə, vergi bəyannamələrinin doldurulması üzrə «myTax» elektron sistemi artıq müasir və aktual alət deyildir. «H&R Block» vergi şirkətinin mühasibləri keçən il göndərilmiş 200 elektron vergi bəyannaməsini təhlil edərək belə qənaətə gəlmişlər ki, bəyannamələrin 59%-də səhvlər var.

## BMT-yə vergidən yayınmaya qarşı beynəlxalq orqan təsis etmək təklif olunub

Ekvadorun xarici işlər naziri Qiyom Lonq BMT-yə vergi limanlarında qanun-qayda yaratmağa və korrupsiyaya qurşanmış elitanın vergidən yayınmasının qarşısını almağa qadir olan beynəlxalq bir qurum yaratmağı təklif etmişdir.

Beynəlxalq Valyuta Fondunun hesablamalarına əsasən, inkişaf etməkdə olan ölkələrdə vergidən yayınma ucbatından vurulan ziyanın məbləği illik 200 milyard dollara çatır - bu məbləğ isə həmin ölkələrə ayrılan yardımın ümumi məbləğindən xeyli artıqdır.

Təklif olunan yeni beynəlxalq orqan üzv dövlətləri təmsil edəcək və transmilli korporasiyaların vergidən yayınmalarının qarşısını almaq, vergi limanlarını bağlamaq və öz pullarını vergidən yayındıran korrupsiyalaşmış elitanı ifşa etmək üçün hüquqi səlahiyyət alacaq. Ekvadorlu nazir demişdir: «Biz öz ölkəmizdə vergidən yayınmaya qarşı uğurla mübarizə aparırıq. On il bundan əvvəl ekvadorluların bəyannamələrində göstərilən verginin məbləği cəmi 3,5 milyard ABŞ dolları olduğu halda, 2014-cü ildə bu göstərici 14,5 milyard dollar olmuşdur».

Qeyd edək ki, Latın Amerikası və Qəraib hövzəsi ölkələri üzrə İqtisadi Komissiyanın məlumatlarına görə, bu region vergidən yayınmalar ucbatından hər il 340 milyard ABŞ dolları həcmində vəsait itirir.

## Xəbər lenti

**İndoneziya**da həmkarlar ittifaqlarının üzvləri hökumətin təklif etdiyi vergi əfvi planına qarşı etirazını bildirmişdir. Hökumət tərəfindən bu addımın ölkənin büdcə kəsirini aradan qaldırmaq məqsədilə atıldığı bildirilsə də, etirazçılar vergidən yayınan varlı vətəndaşların əfv edilməsini ədalətin pozulması kimi qiymətləndirirlər.

**ABŞ**-da Demokratlar Partiyasının təmsilçiləri transmilli korporasiyaların vergi şəffaflığı ilə bağlı qanun layihəsini baxılmaq üçün Konqresə təqdim etmişlər. Layihə transmilli şirkətlərə xaricdə ödədikləri vergilər barədə daha ətraflı açıqlama vermək öhdəliyi müəyyənləşdirir.

**ABŞ** prezidentliyinə namizəd Hillari Klinton prezident seçiləcəyi təqdirdə vərəsəlik üçün verginin dərəcəsini maksimum səviyyəyə - 65%-ə qaldırmaq fikrində olduğunu bildirmişdir.

**Belçika**nın Baş naziri Mişel Şarl hazırkı vergi sisteminin tarazlaşdırılması planından bəhs edərək demişdir ki, başlıca məqsəd aşağı və orta gəlirli vətəndaşları dəstəkləməkdir. Hazırda ölkədə varlı təbəqə üçün yüksək vergi güzəştləri mövcuddur.

**Kanada və İsrail** ikiqat vergitutma ilə bağlı daha bir saziş imzalamışlar. Yeni sazişə əsasən, dividendlərdən, faizlərdən və royaltidən tutulan vergilərin dərəcələri aşağı salınmışdır.

**Tayvan** hökuməti Maliyyə Nazirliyinin xarici onlayn mağazalardan əlavə dəyər vergisinin tutulması ilə bağlı təklifini təsdiqləmişdir.

**Avstraliya**da işləyən turistlərdən vergi tutulması qanuniləşdirilmişdir. Bu ölkəyə turist kimi gəlib müvəqqəti işləyən əcnəbilərdən 19%-lik «çanta vergisi» tutulacaq.

**ABŞ**-ın Federal Andlılar Məhkəməsi «Apple» korporasiyasından patent saxlayıcısı «VirnetX» kompaniyasına 302,4 milyon dollar həcmində cərimə ödəməyi tələb edib. Səbəb «Apple»in «VirnetX» kompaniyasına məxsus texnologiyalardan qanunsuz istifadə etməyi olub.

**İrlandiya**da hazırda xaricdə işləyən yüksək ixtisaslı kadrların ölkəyə qaytarılması məqsədilə onlar üçün vergi güzəştlərinin tətbiq edilməsi müzakirə olunur.

## Cənubi Koreyanın vergi orqanları vergi əfvinin nəticələrindən razıdır

Vergi administrasiyası tərəfindən bildirilmişdir ki, bu ilin ilk altı ayı ərzində ölkənin vergi ödəyiciləri və onların xaricdəki maliyyə aktivləri barədə informasiyaların açıqlanmasında əhəmiyyətli dərəcədə irəliləyiş olmuşdur. Məlumatların könüllü açıqlanması proqramı çərçivəsində özlərinin bəyan edilməmiş gəlirləri və aktivləri barədə hesabat verən fərdi şəxslərin və xarici şirkətlərin cəzaları minimuma endirilmişdir və onlar cinayət məsuliyyətindən azad olunmuşlar.

Cənubi Koreyada bəyan edilməmiş offşor aktivləri barədə hesabat vermək arzusunda olanların sayı bu ilin birinci yarısında 1053 nəfər olmuşdur. Ölkə üzrə açıqlanmış aktivlərin dəyəri 56,1 trilyon Koreya vonu (50,4 milyarda ABŞ dolları) təşkil edir. Fiziki şəxslərin açıqladıqları aktivlər əsas etibarilə Sinqapurda, ABŞ-da və Honkonqda yerləşdirilmişdir.



krossvord

**Yuxarıdan aşağı:** 1.Bədii janr. Hər hansı bir şeydə gülməli cəhət; məzəlilik, yumor; 2.Kiçik hekayə; 3.Yunan mifologiyasında mübahisə ilahəsi; 4.RF-nin Krasnodar diyarında şəhər; 5.Satinin nazik növü; 6.Dövr, zaman ölçüsü; 7.Hindistanda eyniadlı kənddə mağaralar sistemi. 1983-cü ildən UNESCO-nun bədii irsinə daxil edilmiş bu məbəd və qalalar 6-9 əsrlərə aiddir; 13.Bir binada yerləşən xidmət, əyləncə və ticarət müəssisələri qrupu; 15.1970-ci ildə təsis edilmiş satirik kinojurnal; 16.Orta əsrlərdə ölkəyə idxal olunan mallara tətbiq edilən vergi növü; 17.Günəş sistemi planetlərindən biri; 18.Almaniyada erkən barokko cərəyanının nümayəndəsi, memar və heykəltəraş; 20.Hidroksil sinfindən mineral (süxur); 21.Böyük Britaniyada şəhər. **Soldan sağa:** 1.Konsert proqramının nömrələrini elan edən və antrakt zamanı tamaşaçıları əyləndirən artist; 8.Afrikada yerləşən ada-dövlət; 9.German-skandinav mifologiyasında personaj - dağlarda və bataqlıqlarda yaşayan, insan əti ilə qidalanan məxluq; 10.Məşhur fransız yazıçı, XIX əsrin ikinci yarısında realizmin ən görkəmli nümayəndələrindən biri, naturalizm ədəbi cərəyanının rəhbəri və nəzəriyyəçisi; 11.Göyün cənub yarımkürəsində bürc; 12.Şimali Afrika, Ərəbistan yarımadası, Hindistan və Asiyanın bir sıra bölgələrində geniş yayılmış kişi baş örtüyü; 14.İdarənin, müəssisənin və s. adı olan möhür; 19.Məşhur ispan opera müğənnisi; 21.Avtomobilqayırmanın yaranmasında əhəmiyyətli rol oynamış alman mühəndis və ixtiraçının soyadı; 22.İslam və təsəvvüf dünyasında tanınmış farsdilli şair, mövləvi yolunun öncülü, vəhdəti-vücud (panteizm) fəlsəfəsinin tanınmış nümayəndəsi; 23.Topoqrafiya, geodeziya və tikintidə geniş istifadə olunan optik cihaz (alət); 24.Şahidlərin iştirakı ilə, yaxud yoxlama nəticəsində müəyyən edilən bir faktı təsdiq edən sənəd, yazı, protokol; 25.Daim bir yerdə olan, bir yerdən başqa yerə köçürülməyən idarə, müəssisə, əşya və s.



*Hindistanda mağaralar sistemi*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Merime *(Prosper)*; 2.Taburet; 3.Rükəl; 4.Adnalı; 5.İliamna; 6.Molla; 7.Tamada; 13.Romb; 15.Kosinus; 16.Estamp; 17.Ançous; 18.Rostov; 20.Laert; 21.Rable *(Fransua)*. **Soldan sağa:** 1.Materializm; 8.Rubikon; 9.İslam *(Səfərli)*; 10.Maral; 11.Lombard; 12.Otaru; 14.«Çayka»; 19.Salamin; 21.Resko; 22.Avey dağı; 23.Kombinat; 24.Pat; 25.Vasnetsov *(Viktor)*.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 11000

idman

# Velosiped idmanı üzrə açıq ölkə birinciliyi başa çatıb



**Azərbaycan Velosiped İdmanı Federasiyasının 2016-cı il üçün müəyyənləşdirdiyi təqvim-plana əsasən, Oğuzda yeniyetmə və gənclər arasında çoxgünlük ötüşmələr üzrə ölkə birinciliyi başa çatıb. Gənclər və İdman Nazirliyi ilə birgə təşkil edilən açıq xarakterli yarışda federasiyanın nəzdində fəaliyyət göstərən klub və cəmiyyətlərin 100-ə yaxın idmançısı, həmçinin Gürcüstandan gəlmiş 10 velosipedçi mübarizə aparıb.**

On beş yaşadək oğlanların 30 kilometr məsafəyə qrup ötüşməsində Olimpiya Ehtiyatları İxtisaslaşdırılmış Velosiped Məktəbinin üzvü Nikita Sıtov fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. 2-ci və 3-cü yerləri isə 8 saylı Olimpiya İdman Məktəbinin velosipedçiləri Emil Əliyev və Əmral Əbdüləzizli tutublar. Qızların 30 kilometr məsafəyə qrup ötüşməsində 8 saylı Olimpiya İdman Məktəbinin təmsilçisi Validə Cabbarova birinciliyin qalibi olub. Onun komanda yoldaşı Elfanə Camalova 2-ci, Olimpiya Ehtiyatları İxtisaslaşdırılmış Velosiped Məktəbinin velosipedçisi Viktoriya Buxenskaya isə 3-cü yeri tutub.

17 yaşadək velosipedçilər arasında 43 km-lik mərhələni qalib başa vuran Olimpiya Ehtiyatları İxtisaslaşdırılmış Velosiped Məktəbinin üzvü İvan Orlov Azərbaycan çempionu adını qazanıb. Onun komanda yoldaşları Qadir Mustafayev və Əli Qurbanov isə 2-3-cü yerləri tutublar. Gənclər arasında «Neftçi» İdman Klubu İctimai Birliyinin velosipedçisi Telman Vəliyev üç mərhələnin yekununa əsasən fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Sonrakı yerlərdə Gürcüstan velosipedçiləri Vano Kvahazde və Tamati Tsereteli qərarlaşıblar.

Sonda qaliblərə Azərbaycan Velosiped İdmanı Federasiyası və Gənclər və İdman Nazirliyi tərəfindən medal, diplom və pul mükafatı təqdim olunub.

# «Avro-2020»nin Bakı loqosu təqdim olundu

Sentyabrın 30-da Bakı Olimpiya Stadionunda futbol üzrə 2020-ci ildə təşkil olunacaq Avropa çempionatına ev sahibliyi edəcək 13 şəhərdən biri olan Bakının bu yarışla əlaqədar hazırlanan loqosunun təqdimat mərasimi keçirilib. UEFA-nın prezidenti Aleksander Çeferinin rəhbərlik etdiyi nümayəndə heyətinin iştirak etdiyi tədbirə dünya futbolunun əfsanələrindən olan, «Avro-1988»in qalibi, hollandiyalı futbol ulduzu Ruud Qullit də xüsusi qonaq kimi qatılıb.

Tədbirin əvvəlində «Avro-2020»nin ümumi ovqatını əks etdirən «Körpülər şimalı və cənubu, qərbi və şərqi, insanları və mədəniyyətləri birləşdirir» devizi altında videoçarx göstərilib. Sonra çempionatın təşkilatçılarından biri kimi Bakının seçilməsini əks etdirən videomaterial nümayiş olunub.

Təşkilat Komitəsinin sədri, Baş nazirin birinci müavini Yaqub Eyyubov «Avro-2020»nin oyunlarının 13 şəhərdə, o cümlədən Bakıda keçirilməsini əlamətdar bir məqam kimi qiymətləndirib. Azərbaycan futbolunun tarixinin ayrı-ayrı dövrləri barədə məlumat verən Yaqub Eyyubov əmin olduğunu bildirib ki, «Avro-2020», o cümlədən Bakıdakı oyunlar yüksək səviyyədə keçiriləcək.

Tədbirdə çıxış edən UEFA-nın prezidenti Aleksander Çeferin Avropa çempionatını təkcə qitədə deyil, dünya miqyasında mötəbər yarış adlandırıb. Bildirib ki, növbəti turnirin oyunlarının 12 ölkədə, 13 şəhərdə keçirilməsi bütün Avropada futbolun daha geniş yayılmasına təkan verəcək. Bu yarış ayrı-ayrı xalqlar arasında dostluq münasibətlərini möhkəmləndirəcək.




Mərasimin sonunda akrobatların maraqlı çıxışlarının müşayiəti ilə «Avro-2020»nin loqosu təqdim edilib. Loqonun əsas elementi körpü təsviridir. Bakı şəhərindəki oyunların loqosunda isə Avropa çempionatının kubokunun təsviri fonunda çılğın azarkeşlər, həmçinin Bakı Olimpiya Stadionunun önündəki «Koroğlu» körpüsünün atributları əks olunub. Diqqətə çatdırılıb ki, bu körpü yalnız iki sahili, iki küçəni deyil, bütün qitə xalqlarını birləşdirəcək. Bu, gələcəyə atılan körpüdür. «Avro-2020» isə bu körpünü daha da möhkəmləndirməlidir.

Qeyd edək ki, futbol üzrə ilk Avropa çempionatının keçirilməsinin 60 illik yubileyi ilə əlaqədar «Avro-2020»yə 13 şəhər ev sahibliyi edəcək. Bunlar Bakı (Azərbaycan), Sankt-Peterburq (Rusiya), Buxarest (Rumıniya), Budapeşt (Macarıstan), Münxen (Almaniya), Brüssel (Belçika), Amsterdam (Hollandiya), Kopenhagen (Danimarka), Roma (İtaliya), Bilbao (İspaniya), Dublin (İrlandiya), London (İngiltərə) və Qlazqo (Şotlandiya) şəhərləridir.

Bakıda çempionatın dörd - qrup mərhələsinin üç, dörddəbir final mərhələsinin bir oyunu keçiriləcək.

# Arda milli komandaya «əlvida» dedi



Türkiyə yığmasının heyətinə dəvət olunmayan Arda Turan milli komandada karyerasını başa vurur. Türkiyə mətbuatında yer alan məlumata əsasən, İspaniyanın «Barselona» klubunda çıxış edən ulduz futbolçu millinin heyəti açıqlandıqdan sonra bu qərarı qəbul edib. Qeyd edək ki, o, daha öncə Rusiya və Xorvatiya ilə oyunlara da dəvət almayıb. Baş məşqçi Fatih Terim 2018-ci il dünya çempionatı seçmə mərhələsi çərçivəsində Ukrayna və İslandiyaya qarşı keçirəcək oyun öncəsi, Arda ilə yanaşı, Selçuk İnan, Burak Yılmaz, Caner Erkin və Gökhan Gönülü də yığmaya çağırmayıb.

mozaika

texnologiya



# Ağıllı kəmər

Böyük şəhərdə bəzən lazımi yeri tapmaq çətin olur. Müasir texnologiyalar sayəsində bütün smartfon istifadəçiləri xəritədə mənzil başını tapa və marşrutu müəyyənləşdirə bilir. Lakin hərəkətdə olarkən, xüsusilə, məsələn, motosiklet sürərkən yolu azmamaq üçün xəritəyə baxmaq narahatlıq yaradır.

İtalyan dizayner Marko Zaqariya problemi orijinal üsulla həll etməyi təklif edərək düzgün istiqaməti göstərən «ağıllı» kəmər icad edib. «Ubivade» adlanan aksessuar 16 vibrasiya motorunun quraşdırıldığı adi dəri kəmərdir. Vibrasiya sayəsində «Ubivade» lazımi yerə çatmaq üçün harada dönməyi əvvəlcədən deyəcək, eləcə də avtobus dayanacağı barədə xəbərdarlıq edəcək. Qurğunun başlıca müsbət cəhəti diqqəti yayındıran displey və düymələrin olmamasındadır. İstifadəçi qarşıdan gələn adamla toqquşmaq riski ilə üzləşmir, eləcə də motosiklet və ya velosipeddə gedən zaman xəritəyə baxmaq üçün dayanmağa ehtiyac qalmır.

Hazırda «Kickstarter» saytında layihə şəklində olan «Ubivade» kəmərini 190 dollara sifariş etmək olar. Mavi, qəhvəyi və qara rəngli kəmər klassik və idman üslubunda istehsal ediləcək. Aksessuarın tədarükünə 2017-ci ilin fevralında başlamaq planlaşdırılır.

# Dövlət məmurlarına «WhatsApp» qadağası

Rusiya hökuməti dövlət məmurlarının «WhatsApp», «Viber» və «Telegram» tətbiqetmələri üzərindən yazışmalarına və hər hansı bir fayl göndərməsinə qadağa tətbiq edib.

Rusiya milli təhlükəsizlik nazirliyinin tələbi ilə hökumət belə bir tədbirə əl atıb və bu qadağaya riayət etməyənlər üçün cəzalar tətbiq ediləcək. Tətbiqetmələrdən istifadə edən məmurlar nizam-intizam komitəsi tərəfindən cəzalandırılacaq, yaxud işdən qovulacaq.

Hələlik bu qadağa fərdi istifadəçilər üçün nəzərdə tutulmasa da, gələcəkdə Rusiya hökuməti tərəfindən bu addımın atılacağı istisna edilmir.

cəmiyyət

# Uydurma xəbərlərə qarşı mübarizə genişləndirilir

«Google» şirkətinin dəstəyi ilə həyata keçirilən «First Draft Coalition» layihəsi çərçivəsində «Facebook» sosial şəbəkəsi və «Twitter» mikrobloqlar servisi özlərində 30-dan çox media şirkətini birləşdirib. Ötən il icrasına başlanılan layihənin məqsədi sosial şəbəkələrdə uydurma xəbərlərin yayılması ilə mübarizə aparmaq və informasiyanın keyfiyyətini yaxşılaşdırmaqdır.

Təşkilatın idarəedici direktoru Cenni Sarcentin sözlərinə görə, platformanın oktyabrın sonunda istifadəyə verilməsi nəzərdə tutulur. Layihədə «Facebook» və «Twitter» ilə yanaşı, «New York Times» və «Washington Post» qəzetləri, «BuzzFeed News» nəşri, «AFP» agentliyi və «CNN» telekanalı iştirak edir. Layihə müəllifləri şirkətlər üçün praktiki təlimat yazacaqlarını, media savadlılığının artırılması ilə məşğul olacaqlarını, eləcə də sosial şəbəkə istifadəçilərinin xəbərləri təsdiq və ya inkar etmələri üçün platforma işə salacaqlarını bıldırıblər.

Qeyd edək ki, «Facebook» və «Twitter» uydurma xəbərlərin yayılmasına görə dəfələrlə tənqid olunub.

mədəniyyət

# Belarusda Nar bayramı

«Belarusda Azərbaycan İcmaları Konqresi» Beynəlxalq İctimai Birliyinin yaydığı məlumata görə, oktyabrın 1-də Belarus paytaxtında Nar bayramı keçiriləcək. Tədbirin qonaqlarını zəngin konsert proqramı gözləyir. Azərbaycan milli musiqisi və «Qafqaz əfsanələri», «Sarı gəlin» kollektivlərinin rəqsləri ilə yanaşı, konsertdə «Eurovision - 2015» uşaq müsabiqəsində Belarusu təmsil edən Ruslan Aslanov, «Türkvision - 2015» beynəlxalq müsabiqəsinin belaruslu iştirakçısı Saşa Kazımov, Gənclər Estrada Teatrının solisti Şir çıxış edəcəklər. Populyar Belarus müğənnisi Günəş Abbasova, eləcə də bayramın xüsusi qonağı, müğənni-bəstəkar Elcan Rzayev (Hollandiya) öz mahnılarını tamaşaçılara ərməğan edəcək.



Konsertdən başqa, bayram iştirakçılarını Azərbaycanın milli yeməklərinin hazırlanmasına dair «ustad dərsləri», nar şirəsi sıxmaq, parlaq idman yarışı - Azərbaycan güləşi, milli üslubda fotozona təqdim ediləcək. Nərd həvəskarları üçün də meydança təşkil olunacaq.

Bayramda Azərbaycanın milli mətbəxinin dadlı yeməklərini, şirniyyatlarını, məşhur Azərbaycan çayını dadmaq imkanı da olacaq. Tədbir çərçivəsində unikal Azərbaycan hədiyyələrinin satış-sərgisi keçiriləcək.

Nar bayramının təşkilatçıları Minsk Şəhər İcraiyyə Komitəsi və «Belarusda Azərbaycan İcmaları Konqresi» Beynəlxalq İctimai Birliyidir.

tam ciddi

# Verilən qərarlar əhval-ruhiyyədən asılıdır

ABŞ-ın Stenford Universitetinin alimləri qərar qəbulu zamanı insanın əhval-ruhiyyəsinin mühüm rol oynadığını müəyyən ediblər. Mütəxəssislər insanların arzuolunmaz və eyni zamanda vacib işlərlə yüksək əhval-ruhiyyədə ikən məşğul olduqları qənaətinə gəliblər. Buna hesabın ödənilməsi, evdə təmizlik işlərinin aparılması və s. aid edilə bilər.

Tədqiqatlar qeyri-ənənəvi üsulla aparılıb. Bir ay müddətində smartfon vasitəsilə 60 min insanın gündəlik həyat tərzi müşahidə edilib. Araşdırmaların sonunda insanların xoşagəlməz vəzifələri xoş əhval-ruhiyyədə olarkən yerinə yetirdikləri təsdiq edilib. Müəyyən olunmuş qanunauyğunluq dinamik hedonist rahatlıq adlandırılıb.

Tədqiqatlardan sonra müəyyən edilib ki, xoşagələn və gəlməyən hallar arasında sağlam balansa nail olmaq insanın xoşbəxt və rahat yaşamasına əhəmiyyətli dərəcədə təsir göstərir.

robotexnika

# Zibili robot yığır

ABŞ-ın Baltimor şəhərinin limanında «zibilyığan robot» üzür. Yuxarı hissəsində yerləşdirilmiş günəş batareyalarının enerjisindən istifadə edən və dəniz axınlarının gücü sayəsində dəyirmana bənzəyən çarxlarını fırladan bu kiçik gəmi şəhərdən axan çayın okeana apardığı tullantıları süzür. Tullantılar gündə bir dəfə emal edilərək yandırılmağa və ya zibilliyə göndərilir.

Ötən il bu robot vasitəsilə 118 min 670 plastik butulka və 2,6 milyon kötük toplanıb. Bəzi hesablamalara əsasən, hazırda okeanlarda təxminən 270 min ton müxtəlif plastik tullantı var.

**Müdriklər deyib ki...**



*«Düşünə bilən hər kəsin insan olması insan olan hər kəsin düşünə bildiyi mənasını vermir».*

*Ziqmund Freyd (1856 – 1939)*